# Büdcə və təhsil

*(Təhsil işçiləri üçün büdcə yaddaşı)*

Budget
and education

**“Ekspert” jurnalı**
**Bakı - 2004**

**“Ekspert” iqtisad jurnalı**
Bakı şəhəri,
M.Muxtarov küç., ev 9, mən.40a
Tel: (99412) 92 20 21
Faks: (99412) 98 44 31
E-mail: ekspert@azeronline.com
Website: www.ekspert.az

**Müəlliflər qrupu:** Azər MEHTİYEV
Qubad İBADOĞLU
Rövşən AĞAYEV

Kitab **Açıq Cəmiyyət İnstitutu - Yardım Fondu**nun maliyyə dəstəyi ilə çap olunub.

Kitab dövlət büdcəsi ilə təhsil arasındakı qarşılıqlı əlaqə və münasibətlərin, həmçinin dövlətin təhsilin maliyyələşdirilməsindəki rolunun hazırkı vəziyyətindən bəhs edir. Nəşr təhsil işçilərinə öz hüquqlarını - vəzifə və borclarını yaxşı təsəvvür etməyə səriştəli bələdçi olmaqla yanaşı, təhsilin maliyyələşməsi sahəsində informasiya qıtlığını dəf etməkdə də onlara yardımçı olacaqdır.

Kitabda “Ekspert” jurnalının **“Oxfam GB”** ilə birgə “Şəffaf büdcə” layihəsi çərçivəsində həyata keçirdiyi “Təhsil xərclərinin monitorinqi” məlumatlarından istifadə olunub.

ISBN 9952-8031-5-x © “Ekspert” iqtisad jurnalı

## Bələdçi söz

Bəxtiyar adamlar, təbii, gələcək günün intizarını çəkmirlər, yoxsul insanlar isə nəinki günün, ilin də xoş gələcəyi ilə özlərini ovundurur, hər ildən bərəkətli qismət gözləyirlər. Onlar üçün yaxşı həyat vaxtın arxasındadır. Günümüzün həqiqətidir bu ovqat.

Bax, həmin anlamda büdcə ili Azərbaycan əhalisinin əksəriyyətinin ümid ili, sosial həyatın yaxşılığa doğru dəyişəcəyi rəmzidir.

Budur, Azərbaycan Respublikası Milli Məclisi 2005-ci ilin dövlət büdcəsini təsdiq etmişdir. Bununla da müstəqil dövlətin, onun vətəndaşlarının həyatında yeni mərhələ - büdcənin icrası mərhələsi başlanır.

Büdcə xalqın təhsil həyatına nə vəd edir? Məktəbə, müəllimə, gələcək nəslin təlim-tərbiyəsinə yönəldilmiş büdcə müddəaları gözlənilən, istənilən məqsədləri vermək iqtidarındadırmı?

Aydın anlaq-anlam üçün, gəlin büdcə mənzərəsini birlikdə seyr edək. Bəşəri bir həqiqətdir ki: məktəb - müəllimin həyatıdır, təhsil isə dövlətin ən mühüm atributu, onun varlığının ən əlamətdar təqdimatıdır. Deməli, dövlətlə məktəb eyni bir iş görürlər - xalqı dünyanın sivil həyatına istiqamətləndirirlər. Təsadüfi deyildir ki, hər bir ölkənin çağdaş inkişaf səviyyəsi ilk növbədə onun təhsilə münasibəti ilə ölçülür. Müasir dünyanın ən inkişaf etmiş ölkəsinin - Amerika Birləşmiş Ştatlarının timsalında bunu aydın görürük. ABŞ-da əhalinin hər nəfərinə təhsil xərci 600 dollar təşkil edən vaxtlarda Azərbaycanda ötən əsrin sonlarında bu 30 dollar olmuşdur. Səksəninci illərdə namərd ermənilərin Azərbaycanı müharibəyə cəlb etməsi, sovet quruluşunun tənəzzülü ilə əlaqədar və ölkədə başıpozuqluğun mövcudluğu ucbatından

cəmiyyətin bütün sütunlarının çat atması respublikada uğurla irəliləyən təhsilə, onun kəmiyyət və keyfiyyət dəyərlərinə sarsıdıcı zərbə endirdi. Dövlət yavaş-yavaş imkan daxilində təhsili- maarifi bu uçurumdan çıxarmağa səy göstərir. 2005-ci ilin dövlət büdcəsindən də bu görünməkdədir. 2005-ci ilin dövlət büdcəsində bütün başqa sahələrə nisbətən təhsilə yüksək miqdarda vəsait ayrılıb.

Bu bir həqiqətdir ki, müəllim xalq həyatının barometridir. Müəllimin sifətində təzadlı hikmət olur: insan sərrafı olan müəllim gülürsə deməli xalq xoşbəxt çağlarını yaşayır, yox.... Bax, bu gülməyən sifət hamını - dövləti də, cəmiyyəti də narahat etməlidir.

Ulu pedaqoq sözüdür bu: Ana, adətən nadinc uşağını müəlimlə hədələyir, uşağının bu və ya digər sarpma məqamında da günahkar müəllimi sayır. Müəllimə bu inam - onu inanc məqamına yüksəldir. Etiraf edək ki, bir qurumdan başqasına keçid dövründə - iqtisadi - dolanışıq dövrünün ağırlıqlarını müəllim mərdanəliklə, şərafətlə çəkdi, təhsilin pozulmasının tam deformasiyaya uğramasının qarşısını aldı.

Hamılıqla çalışmalı, səy göstərilməlidir ki, məktəb, müəllim dövlət büdcəsinin imkanından dəyərincə faydalansın. Bunun üçün birinci növbədə təhsil işçiləri qayğılanmalı, yerlərdə büdcə tələblərinə dəqiqliklə əməl olunmasını təmin etməlidirlər.

İndi müəllimin özünün də fəal hərəkəti xüsusi əhəmiyyət kəsb edir.

Öz hüquqlarınızı - vəzifə və borclarınızı yaxşı təsəvvür etməkdə, güman edirik ki, əlinizdəki bu nəfis kitabça sizə səriştəli bələdçilik edəcək, təhsilin çağdaş vəziyyətindən hali olmaqda korluq çəkdiyiniz informasiya möhtaclığınızı dəf etməkdə sizə köməkçi olacaqdır.



# I. Büdcə və təhsil

Təhsil - insanın mənəvi inkişafının mənbəyidir. Həm də yalnız ayrı-ayrı şəxslərin mənəvi qazancı deyil, bütövlükdə cəmiyyətin, dövlətin sosial-iqtisadi və mənəvi inkişafının təməlidir. Buna görə də təhsil səviyyəsinin yüksəldilməsi və insanın inkişafı hər bir ölkədə iqtisadi artımın hərəkətverici qüvvəsi sayılır. Təhsilin inkişaf səviyyəsi ilə milli gəlir arasında birbaşa əlaqə mövcudluğu inkarolunmaz gerçəklikdir. Dünya Bankının 192 ölkədə apardığı tədqiqatlar nəticəsində məlum olub ki, planetimizdə iqtisadi artımın 16%-i fiziki kapital, 20%-i təbii resurslar, 64%-i isə insan kapitalı hesabına baş verir. "İnsan kapitalı" nəzəriyyəsinin yaradıcılarından biri, 1979-cu ildə iqtisadiyyat sahəsi üzrə Nobel mükafatı almış

T.Şultsun hesablamalarına görə ABŞ iqtisadiyyatında insan kapitalı fiziki kapitaldan çox gəlir gətirir. Bundan əlavə, Qərbdə aparılan tədqiqatlara görə inkişaf etmiş ölkələrdə insan kapitalına qoyulan investisiyaların gəlirlilik norması səhmlərdən əldə olunan qazancı azı iki dəfə üstələyir. Görünür, elə bu səbəbdəndir ki, son onillikdə ABŞ-da hər il təhsilə orta hesabla 100 milyard dollardan çox vəsait xərclənib. Öz növbəsində, son 40 ildə təhsilə çəkilən xərclər ABŞ-da 14,7 dəfə (o cümlədən ali təhsilə xərclər 20 dəfə) artmışdır.

Təhsilə yönələn investisiyaların xarakterik cəhəti budur ki, bir tərəfdən fərdlərin özünüreallaşdırma imkanlarını və sosial statusunu artırır, cəmiyyətin intellektual-mənəvi potensialının təkrar istehsalını təmin edir, digər tərəfdən isə arasıkəsilməz proses kimi, istehsalda və texnologiyada baş verən dəyişikliklərə adekvat olaraq işçi qüvvəsinin keyfiyyətcə təkmilləşməsinə xidmət edir.

Belə ki, ABŞ-da fiziki əməklə məşğul olanların məcmu işçi qüvvəsinə nisbəti 26 faiz, ixtisassız işçilərin onun tərkibində payı isə 10 faiz təşkil etdiyi halda, Rusiyada həmin göstəricilər müvafiq olaraq 68 və 45 faiz təşkil edir.

İnsan kapitalının rentabelliyi ona çəkilən xərclərin dəyəri ilə ölçülür. Bu, təkcə təhsil və peşə hazırlığına sərf olunan xərclər deyildir, həmçinin təhsil dövründə itirilmiş əmək haqqı xərclərini ehtiva edir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, işçilərin ixtisas səviyyəsinin yüksəldilməsi və peşə-ixtisas tərkibinin optimallığı bilavasitə insan kapitalına yönəldilən investisiyaların həcmindən və səmərəliliyindən asılıdır.

Ötən əsrin son onilliklərində inkişaf etmiş ölkələrdə elmi işçilər və mühəndislər arasında işsizliyin

səviyyəsinin (4-5 faiz) həmin ölkələr üzrə orta göstəricidən (7,2 faiz) aşağı olması təhsilin inkişafının əhəmiyyətini daha qabarıq formada göstərdi. Hələ 80-ci illərin ortalarında ABŞ-ın Hudznovsk İnstitutu proqnozlaşdırırdı ki, 1985-2000-ci illərdə bu ölkədə yaranacaq iş yerlərinin 30-35 faizini kollec və ali məktəb məzunları tutacaq. Eyni zamanda Almaniyada bu göstəricinin 80 faizi ötəcəyi, ixtisassız işçi qüvvəsinə tələbin isə 32 faiz azalacağı proqnozlaşdırılırdı.

Bütün bunlar onu göstərir ki, yeni texnika və texnologiyanın tələblərinə cavab verən kadrların hazırlanması və keyfiyyətcə təkmilləşdirilməsi məhz fasiləsiz təhsil sisteminin köməyi ilə mümkündür. Qərb tədqiqatçıları, uzun illər ərzində apardığı araşdırmalarından sonra, belə bir nəticəyə gəliblər ki, tam orta təhsili olan şəxslər natamam orta təhsillilərə nisbətən texnikanı 2 dəfə tez mənimsəməklə yanaşı, onların əmək məhsuldarlığı 20-30 faiz yüksək olur. Bundan başqa, amerikan alimlərinin araşdırmalarına görə, ötən əsrin 80-90-cı illərində onların ölkəsində ən yüksək əmək haqqı alan 10 faiz yüksək ixtisaslı işçi qüvvəsinin real əmək haqqı 40 faiz artdığı halda, ən az məvacib alan 10 faiz azixtisaslı işçi qüvvəsinin məvacibi cəmi 5 faiz artmışdır.

İnsan inkişafının qiymətləndirilməsində istifadə olunan 3 mühüm göstəricidən biri əhalinin təhsil səviyyəsidir (digər göstəricilər: doğulanda gözlənilən ömür uzunluğu və adambaşına milli gəlirdir).

Təəssüf ki, sovet sisteminin dağılmasından ötən illər ərzində Azərbaycanın təhsil sistemi deformasiyaya məruz qalıb. Dövlətin maliyyə imkanlarının məhdudluğu bu sahəyə ciddi dövlət dəstəyinə mane olub. Məsələn, 20-ci yüzilliyin sonlarında əhalinin hər nəfərinə təhsil xərcləri dünya üzrə orta hesabla

230 dollar, o cümlədən Amerikada 600 dollar, Avropada 800 dollar təşkil edibsə, hesablamalara görə axır 5 ildə Azərbaycanda həmin məbləğ 30 dolları ötməyib. Azərbaycanda təhsilin bu cür zəif maliyyə bazasına malik olması, eyni zamanda bir çox hallarda təhsilə yönələn dövlət resurslarının səmərəsiz istifadəsi ölkədə təhsilin keyfiyyətinin yüksəldilməsi üçün başlıca maneə hesab oluna bilər.

Təkcə bir faktı qeyd edək ki, son illər Azərbaycanda yalnız ibtidai təhsil üçün dərs vəsaitələri pulsuz paylanıb. Nəzərə alaq ki, ölkədə yoxsulluğun yüksək səviyyədə olduğu hazırkı şəraitdə orta məktəblərdə dərs vəsaitlərinin pulla satılması uşaqların icbari orta təhsillə əhatəsində qeyri-bərabər şəraitin yaranmasına gətirib çıxarır. Halbuki, Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsində göstərilir ki, hər bir vətəndaşın təhsil almaq hüququ var. Dövlət isə bu hüqun reallaşmasına təminat verməyə borcludur.

Kaş geri dolana zamanın çərki,
Sən yenə müəllim, ustad olasan.
Biz də o məktəbli dəcəl balalar,
Onda biz qoymazdıq sən qocalasan

***Şəhriyar***

Bir halda ki, söhbət büdcə və təhsil arasındakı qarşılıqlı əlaqə və münasibətlərdən gedir, şübhəsiz dövlət büdcəsindən maliyyələşdirilən təhsil ocaqlarında çalışan pedaqoji heyətin həyat səviyyəsinə toxunmamaq düzgün olmazdı. Çünki təhsilin səviyyəsi bu sahədə işləyən insanların yaşayışından birbaşa asılıdır. Müəllimlərin əmək haqqı yalnız dolanışıqla məpbut deyil, həm də onları biliklərini daima artırmağa, tədris metodikalarını təkmilləşdirməyə həvəslən-

dirməlidir. Təəssüf ki, hələlik Azərbaycan müəllimi-nin firəvan həyat tərzindən danışmaq mümkün deyil. Məsələn, 1990-cı ildə təhsil sistemində çalışanların məvacibi iqtisadiyyat üzrə orta aylıq əmək haqqının 91 faizi qədər olmuşdursa, son illər həmin nisbət 65-70 faizə düşüb. Öz növbəsində, hazırda dövlət təhsili sistemində çalışanların məvacibi qeyri-dövlət təhsil sistemində çalışan işçilərin əmək haqqısının 55-56 faizini təşkil edir. Yəqin elə bu səbəbdəndir ki, müəllimlik peşəsinə yiyələnən məzunların xeyli his-səsi öz ixtisasları üzrə işləməyə üstünlük vermir. Məsələn, Təhsil Nazirliyinin məlumatına görə, 2003-cü ildə 5462 nəfər müəllim ixtisasına yiyələn-miş məzuna təyinat verilsə də, onlardan cəmi 900-ü ixtisası üzrə işləməyə razılıq verib. Bütövlükdə isə, hazırda ölkənin ümumtəhsil məktəblərində 6000 müəllim yerinin boş olduğu bildirilir.

Başqa bir neqativ fakt isə ölkə əhalisinin peşə təh-siliylə əhatə səviyyəsinin kifayət qədər aşağı olması-dır. Belə ki, Azərbaycanda son illərdə əhalinin peşə təhsiliylə əhatə səviyyəsi 16-17 faiz olduğu halda, bir sıra qərb ölkələrində bu göstərici 30-45 faiz arasında dəyişir. Məlumat üçün bildirək ki, hazırda ölkəmizdə hər 1000 nəfərə tələbələrin sayı (ali və or-ta ixtisas təhsili müəssisələrində və aspiranturada oxuyanlar) orta hesabla 20 nəfər təşkil etdiyi halda, bu göstərici Avstraliyada 56, ABŞ-da 52, Kanadada isə 60 nəfərdir. Əslində elə bu vəziyyətin özü də bila-vasitə təhsilin, xüsüsilə ali və orta ixtisas təhsilinin dövlətdən ciddi maliyyə dəstəyi ala bilməməsindən qaynaqlanır.

Bununla belə, hazırda Azərbaycanın dövlət büd-cəsinin təqribən beşdə birini təhsil xərcləri təşkil edir.

Müəllim olsa pərişan ruzigar, ey dost,
Çörək xəyal edər zehnevin onun bərbad...
Müəllimə verilə yaxşı maiyanə (maaş) gərək,
Gərək, müəllim ola ehtiyacdan azad.

***M.Möcüz***

**Təhsil xərclərinin dövlət büdcəsində xüsusi çəkisi və onun digər funksional istiqamətlərlə müqayisəsi**




Qrafikdən görünür ki, dövlət büdcəsinin bütün xərc istiqamətləri içərisində ən yüksək xüsusi çəki təhsil xərclərinə məxsusdur. Bu sferaya yönəldilən vəsaitlər səhiyyəyə çəkilən xərclərdən 2 dəfə, mədəniyyət və incəsənətin inkişafı ilə bağlı xərclərdən 5 dəfə yüksəkdir.

Yüksəliş yaşla yox, elmlə, ağılla şərəflidir.

***Nizami Gəncəvi***



## II. Dövlət büdcəsindən təhsilə ayrılan xərclər, onların tərkibi və quruluşu

Dövlət büdcəsinin bütün xərcləri dövlətin yerinə yetirdiyi funksiyalar (məsələn, dövlət idarəetməsi, müdafiə, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat və s.) üzrə bölünür. Hər bir dövlətin başlıca funksiyalarından biri də əhalini təhsil xidmətləri ilə təmin etməkdir.

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən ölkənin hər bir vətəndaşı təhsil hüququna malikdir. Təhsil hüququnun reallaşdırılmasının başlıca formalarından biri də dövlət hesabına təhsil almaqdır. Başqa sözlə, ölkənin hər bir vətəndaşı dövlət hesabına təhsil ala bilər. Sosial, yaş, peşə-ixtisas və başqa xüsusiyyətlərindən asılı olaraq, cəmiyyətin ən müxtəlif təbəqələrinin fərqli təhsil xidmətlərinə ehtiyacı olur. Bu ehtiyacın əksər hissəsi isə dövlət hesabına təmin olunur.

Hər il kiçik uşaqlardan tutmuş yaşlı adamlara qədər milyonlarla insan müxtəlif növ təhsil xidmətlərindən yararlanır ki, bu da böyük xərclər hesabına başa gəlir. Və həmin xərclər, əsasən dövlət büdcəsindən ödənilir. Buna görə də hər il dövlət büdcəsinin xərclərinin kifayət qədər böyük bir hissəsi təhsil məqsədlərinə yönəldilir. Bu ayrı-ayrı ölkələrdə fərqlidir.

> Alimlər həyatın yol göstəriciləridir.
>
> ***Zərdüşt***

Təhsil, ümumiyyətlə dövlət büdcəsindən ən çox vəsait ayrılan istiqamətdir. Son illər Azərbaycanın dövlət büdcəsi xərclərinin təxminən 1/5-nə qədəri təhsilə ayrılır. 1995-ci ildə ölkəmizin dövlət büdcəsi vəsaitinin 17,5, 2000-ci ildə 23,8, 2003-cü ildə 19, 2004-cü ildə 19,2 faizi təhsil xərclərinə ayrılıb. Bu, həm də hökumətin təhsilə münasibətini əks etdirən göstəricidir. Təhsilin maliyyələşdirilməsinə son illər dövlətin büdcədən ayırdığı vəsaitin büdcə xərclərində payının dəyişməsi dinamikasını aşağıdakı qrafikdən aydın görmək olar.




***Büdcə xərclərinin ümumi həcmində təhsil xərclərinin payı***

Hökumətin təhsilə münasibətinin ifadəsi hesab olunan başqa bir göstərici büdcədən təhsilə çəkilən xərclərin həcminin ölkənin ümumi daxili məhsulu (ÜDM) ilə müqayisə edilməsidir.




***Dövlətin təhsil xərclərinin ölkənin ÜDM-nə nisbəti***

2005-ci ildə dövlət büdcəsi xərclərinin ümumi həcmi 10.0 trilyon manat proqnozlaşdırılır ki, bunun da 1 trilyon 782 milyard 215 milyon manatının təhsil xərclərinə yönəldilməsi nəzərdə tutulur.




***2005-ci ilin dövlət büdcəsi xərclərində təhsil xərclərinin payı (proqnoz)***

Bu, 2003-cü ildə büdcədən təhsilə ayrılan vəsaitdən 607 milyard 992 milyon manat (yaxud 51.8 faiz),

2004-cü ilin büdcəsində nəzərdə tutulduğundan 244 milyard 48 milyon manat (yaxud 15.9 faiz) çoxdur.

2005-ci ildə dövlət büdcəsindən təhsilə yönəldiləcək vəsait büdcənin bütün xərclərinin 17.8 faizi qədərdir. Müqayisə üçün qeyd edək ki, 2005-ci ilin büdcə xərclərinin 15.0 faizi sosial müdafiə və sosial təminata, 12.1 faizi müdafiə xərclərinə, 5.8 faizi səhiyyə, 6.7 faizi sənaye və tikinti xərclərinə və s. ayrılacaq.

### *Təhsil xərclərinin təhsilin növləri və istiqamətləri arasında bölünməsi*

Yuxarıda, artıq qeyd etdiyimiz kimi, kiçik uşaqlardan tutmuş yaşlı adamlara qədər ən müxtəlif sosial təbəqələr dövlətin təhsil xidmətindən istifadə edirlər. Və təbii ki, bu zaman ayrı-ayrı sosial və ya yaş qruplarının tələbatları çox müxtəlif olduğundan, onlara göstərilən təhsil xidmətləri və tədris formaları da əhəmiyyətli dərəcədə fərqli olur. Məsələn, kiçik uşaqlar məktəbəqədər uşaq müəssisələrinə, uşaq bağçalarına gedir və burada onlara balacalar üçün ən vacib olan şeyləri öyrədir, müəyyən davranışları aşılayırlar. Yaxud, altı yaşından başlayaraq bütün uşaqlar icbari şəkildə ibtidai və əsas təhsilə cəlb olunur, orta məktəbdə oxuyurlar. Bu zaman sağlamlığında məhdudiyyətləri olan uşaqlar üçün xüsusi məktəblər və kurslar təşkil olunur. Texniki-peşə məktəblərində müxtəlif peşələr öyrədilir, texnikumlarda və kolleclərdə tələbələrə orta ixtisas təhsili verilir, institut və universitetlərdə isə tələbələrə ixtisaslar daha dərindən tədris edilməklə elmin əsasları mənimsənilir. Müxtəlif sahələrdə çalışan mütəxəssislərin ixtisas səviyyəsini yüksəltmək və biliklərini artırmaq üçün ixtisasartırma kursları təşkil olunur. Buradan göründüyü kimi, bütün bu təhsil növlərinin

mahiyyəti, məzmunu, tədris üsulları və tədrisin təşkili formaları biri-birindən kifayət qədər fərqlənir. Buna görə də dövlət büdcəsindən təhsilə ayrılan xərclər bütün bu qeyd olunan və olunmayan istiqamətlər arasında bölünür.

## Məlumat üçün

- **Məktəbəqədər təhsil:** Hazırda respublikamızda fəaliyyət göstərən 1777 məktəbəqədər təhsil müəssisəsinə 110.8 min uşaq cəlb edilmişdir. Onların təhsili ilə 14700-dən çox pedaqoji işçi məşğul olur. Bütün məktəbəqədər müəssisələrin əsas hissəsini təşkil edən ümumi tipli müəssisələrlə yanaşı, ölkədə xüsusi təyinatlı 5 müəssisə və 6 sanatoriya müəssisəsi fəaliyyət göstərir. Bundan başqa, bir sıra məktəbəqədər müəssisələrdə sanatoriya və xüsusi təyinatlı qruplar yaradılıb.
- **Uşaq evləri və internat məktəbləri:** Hazırda ölkədə yetimlər və valideyn himayəsindən məhrum olan uşaqlar üçün 6 dövlət uşaq evi və 2 dövlət internat məktəbi fəaliyyət göstərir.
- **Ümumi təhsil:** Hazırda respublikamızda 4546 ümumi təhsil məktəbi fəaliyyət göstərir, bunlarda təhsil alan 1 milyon 700 minə qədər şagirdin təlim-tərbiyəsi ilə 168 min pedaqoji işçi məşğul olur.
- **Texniki peşə təhsili:** Hazırda respublikada 110 texniki-peşə təhsili müəssisəsi, o cümlədən 49 peşə litseyi və 61 peşə məktəbi fəaliyyət göstərir. Peşə-ixtisas təhsilli 112 ixtisas üzrə kiçik mütəxəssislərin hazırlanmasını təmin edir. Texniki-peşə təhsili şəbəkəsində 21400-ə qədər şagird təhsil alır. Texniki-peşə məktəbi və peşə litseylərində şagirdlərin təlim-tərbiyəsi ilə 6432 nəfər, o cümlədən 4226 nəfər mühəndis-pedaqoji işçi məşğuldur.
- **Orta ixtisas təhsili:** Hazırda respublikada orta ixtisas təhsili proqramlarını həyata keçirən 55 orta

ixtisas təhsili müəssisəsi fəaliyyət göstərir. Burada mütəxəssis hazırlığı 37 istiqamətdə olan 108 ixtisas üzrə aparılır. Bu gün orta ixtisas təhsili müəssisələrində 52 mindən çox tələbə təhsil alır. Tələbələrin təlim-tərbiyəsi ilə 6353 müəllim heyəti məşğul olur.

- **Ali təhsil:** Azərbaycanda çoxpilləli (bakalavr, magistratura) ali təhsil həyata keçirilir. Hər il bakalavr pilləsinə 20 mindən çox, magistratura pilləsinə isə bakalavr məzunlarının 20%-nə qədər tələbə qəbul olunur. Ali təhsil müəssisələrində 92 istiqamət üzrə mütəxəssis hazırlığı aparılır. 2003/2004-cü dərs ilinin əvvəlinə Azərbaycanda 104 min tələbənin təhsil aldığı 27 dövlət ali məktəbi fəaliyyət göstərmişdir. Dövlət ali təhsil müəssisələrində tələbələrin təlim-tərbiyəsi ilə 12 minə yaxın professor-müəllim heyəti məşğul olur. (Bundan başqa, ölkəmizdə Ali Hərbi Ümumqoşun Komandirlər məktəbi, Ali Hərbi Dənizçilik məktəbi, Ali Hərbi Təyyarəçilik məktəbi, Bakı Ali Polis Akademiyası və 15 qeyri-dövlət ali təhsil müəssisəsi ali təhsilli mütəxəssislər hazırlayır.)
- **İxtisasartırma və yenidənhazırlanma təhsili:** Azərbaycanda ixtisasartırma və yenidənhazırlanma təhsili şəbəkəsinə 15 tədris müəssisəsi, 11 ixtisasartırma və yenidənhazırlanma fakultəsi, 10 treninq mərkəzi, 68 baza kafedrası, 1638 dayaq məntəqəsi daxildir. Bu şəbəkə üzrə ildə təxminən 20 minə yaxın pedaqoji kadrın ixtisası artırılır, 2 minə yaxın kadr yenidən hazırlanır. Dayaq məntəqələrində hər il 30 mindən çox pedaqoji kadr təkmilləşdirmə prosesinə cəlb olunur.

Beləliklə, dövlət büdcəsindən təhsilə ayrılan vəsaitlər (büdcə təsnifləşdirilməsinə əsasən "Təhsil xərcləri" funksional bölməsi) aşağıdakı funksional istiqamətlər (büdcə təsnifləşdirilməsində bunlara "paraqraflar" deyilir) üzrə bölünür:

**1. Məktəbəqədər uşaq müəssisələri.** Bu paraqrafa şəhərlərdə, qəsəbələrdə və kənd yerlərində

məktəbəqədər uşaq müəssisələrinin təşkili və saxlanılması xərcləri aid edilir.

**2.Məktəb-uşaq bağçaları, ibtidai, əsas və orta təhsil məktəbləri, gimnaziyalar, litseylər.** Bu paraqrafa bütün növ ibtidai və ümumi orta təhsil məktəblərinin, o cümlədən məktəb-uşaq bağçaları, ibtidai, əsas və orta təhsil məktəbləri, gimnaziyalar, litsey və kolleclərin, günü uzadılmış qrupların və məktəblər nəzdindəki internatların saxlanılması xərcləri, eləcə də musiqi və rəssamlıq onillik məktəbləri və sanatoriya-peşə məktəbləri üçün xərclər aid edilir.

**3. İnternat məktəbləri.** Bu paraqrafa xüsusi rejimli və idman təmayüllü internat məktəblərindən başqa bütün tiplərdən olan internat məktəblərinin saxlanılması xərcləri aid edilir.

**4. Xüsusi rejimli internat məktəbləri.** Bu paraqrafa lal-kar, kor, poliomelit keçirmiş, zəif görmə qabiliyyəti olan, eləcə də zehni və fiziki inkişafında fiziki və başqa qüsurları olan uşaqlar üçün internat məktəblərinin saxlanılması xərcləri aid edilir.

**5. Xüsusi məktəblər.** Bu paraqrafa xüsusi tərbiyəedilmə şəraitinə ehtiyacı olan uşaqlar üçün nəzərdə tutulmuş xüsusi məktəblərin saxlanılması xərcləri aid edilir.

**6. Texniki-peşə məktəbləri və litseyləri.** Bu paraqrafa texniki-peşə məktəbləri və litseylərinin saxlanılması xərcləri aid edilir.

**7. Xüsusi texniki-peşə məktəbləri və litseyləri.** Bu paraqrafa həddi-büluğa çatmamış uşaqlar üçün tərbiyə koloniyaları əsasında təşkil edilmiş və şagirdlərin maddi təminatı müəyyən olunmuş normalar üzrə aparılan xüsusi texniki-peşə məktəbləri və litseyləri, eləcə də Respublika Daxili İşlər Nazirliyinin islah-əmək müəssisələrinin bazasında yaradılan texniki-peşə məktəbləri və litseylərinin inzibati və

müəllim (ustaları daxil etməklə) heyətinin saxlanılması və başqa tədris xərcləri aid edilir.

**8. Orta ixtisas təhsili müəssisələri.** Buraya texnikum, pedaqoji, musiqi, xoreoqrafiya, rəssamlıq, tibb, olimpiya ehtiyatı və sair məktəblər üzrə xərclər aid edilir.

**9. Ali təhsil müəssisələri.** Bu paraqrafa ali məktəblərin nəzdində fəaliyyət göstərən aspirantura və doktorantura, eləcə də kafedraların elmi işləri ilə bağlı xərcləri daxil olmaqla ali məktəblərin xərcləri aid edilir.

**10. Kurs tədbirləri və ixtisasartırma institutları.** Buraya bütün ixtisaslar üzrə kadrların hazırlanması, yenidən hazırlanması və ixtisasartırma kursları üzrə xərclər, eləcə də mütəxəssislərin təkmilləşdirmə institutlarının saxlanılması xərcləri aid edilir.

**11. Kadrlar hazırlığı üzrə sair tədris müəssisələri.** Bu paraqrafa fəhlə və kütləvi peşələrdən olan başqa kadrların hazırlığı və yenidən hazırlığı üzrə nazirlik və baş idarələrin (Təhsil Nazirliyi sisteminə aid olmayanlar) məktəb (texniki-peşə məktəbləri və litseyləri), tədris-kurs kombinatlarının, tədris mərkəzlərinin saxlanılması xərcləri aid edilir.

**12. Uşaqlarla məktəbdənkənar işlər üzrə müəssisələr və tədbirlər.** Buraya uşaq saray və yaradıcılıq mərkəzlərinin, gənc təbiətçilər stansiyalarının, gənc texniklər stansiyalarının, idman məktəblərinin, gənc turistlər stansiyalarının, idman yeddiillik musiqi məktəblərinin, su stansiyalarının, uşaqların bədən tərbiyəsi evlərinin, uşaqlarla məktəbdənkənar işlər üzrə başqa idarələrin saxlanılması və bu cür tədbirlərin həyata keçirilməsi, idman yarışları və başqa bədən tərbiyəsi üzrə tədbirlərin, bədii olimpiadaları, məktəb yaşlı uşaqlar üçün məktəb meydançaları, uşaq bədii özfəaliyyəti və i.a. üçün xərclər aid edilir.

**13. Metodiki iş, texniki təbliğat, təhsil üzrə sair müəssisələr və tədbirlər.** Bu paraqrafa metodiki kabinetlərin, filmotekaların, loqoped məntəqələrinin, şagirdlərin əmək təlimi və peşəyönümü üzrə məktəblərarası tədris-istehsalat kombinatlarının, təhsil işçiləri evlərinin saxlanılması, müəllimlərin və uşaq müəssisələri və məktəbdənkənar uşaq idarələri işçilərinin konfrans və müşavirələrinin keçirilməsi, hamilik və qəyyumluq edilən uşaqlara pul müavinətlərinin ödənilməsi xərcləri, habelə məktəbə (iş yerinə) getmək üçün müəllimlərə yol xərclərinin ödənilməsi, müəllimlərin elmi ezamiyyələri, nümunəvi layihələşdirmə, məktəblərin inventarlaşdırılması və pasportlaşdırılması, eləcə də müəllimlərin əmək haqqının poçtla göndərilməsi xərcləri, texniki təbliğat və kadr hazırlığı üzrə kinofilmlərin çəkilişi və sair tədbirlər üzrə xərclər də buraya aid edilir.

> Öz nəcib ruhunu, insanpərvər adətlərini öz gəncliyində miras kimi yaşadan bir xalq bəxtiyardır. Onun daha böyük gələcəyi var.
>
> ***Səməd Vurğun***

**14. Uşaq evləri.** Buraya məktəb yaşlı və məktəbəqədər uşaqlar üçün uşaq evləri, xüsusi və ailə tipli uşaq evləri üçün xərclər aid edilir. Bu paraqrafa uşaq evlərindən buraxılan şagirdlər üçün müavinətlərin verilməsi, uşaq evlərində tərbiyə alan şagirdlər üçün sağlamlıq tədbirlərinin aparılması xərcləri də daxil edilir.

**15. Ümumtəhsil fondu.** Bu paraqrafa ibtidai, əsas və orta təhsil məktəblərində ümumtəhsil fondu hesabına ödənilən xərclər daxil edilir.

**16. Mərkəzləşdirilmiş mühasibatlıqların saxlanılması.** Bu paraqrafa təhsil şöbələri (idarələri), icra nümayəndəlikləri nəzdində fəaliyyət göstərən mər-

kəzləşdirilmiş mühasibatlıqların saxlanılması xərcləri aid edilir.

**17. Mərkəzləşdirilmiş təsərrüfat xidməti qrupunun saxlanılması.** Bu paraqrafa təhsil şöbələri (idarələri) nəzdində fəaliyyət göstərən mərkəzləşdirilmiş təsərrüfat xidməti üzrə qrupların xərcləri aid edilir.

**18. Təhsil müəssisələrində proqnozlaşdırılan müqavilələrin bağlanması və başqa növ elmi-tədqiqat, təcrübə-konstruktor işləri üçün vəsait.** Bu paraqrafa təhsil müəssisələrində müqavilə işlərinin ödənilməsinə ayrılan vəsaitlər, başqa növ elmi-tədqiqat və təcrübə-konstruktor işləri, ali məktəblərin tabeliyində olan müstəqil elmi-tədqiqat müəssisələri üzrə xərclər aid edilir.

**2005-ci ilin dövlət büdcəsində (proqnoz) "Təhsil xərcləri"nin paraqraflar üzrə bölgüsü**

| Paraqrafların adı | Məbləğ (milyon manat) | Təhsil xərclərində payı, faizlə |
|---|---|---|
| Təhsil xərcləri, cəmi | 1782215.3 | 100 |
| Məktəbəqədər uşaq müəssisələri | 121146.9 | 6.8 |
| Məktəb-uşaq bağçaları, ibtidai, əsas və orta təhsil məktəbləri, gimnaziyalar, litseylər | 1119441.2 | 62.8 |
| İnternat məktəbləri | 43082.8 | 2.4 |
| Xüsusi rejimli internat məktəbləri | 23198.9 | 1.3 |
| Xüsusi məktəblər | 6114.9 | 0.3 |
| Texniki-peşə məktəbləri və litseyləri | 31823 | 1.8 |
| Xüsusi texniki-peşə məktəbləri və litseyləri | 692.9 | 0.04 |
| Orta ixtisas təhsili müəssisələri | 43899.9 | 2.5 |
| Ali təhsil müəssisələri | 118374.8 | 6.6 |
| Kurs tədbirləri və ixtisasartırma institutları | 11678.2 | 0.7 |
| Kadrlar hazırlığı üzrə sair tədris müəssisələri | 5450 | 0.3 |

| | | |
|---|---|---|
| Uşaqlarla məktəbdənkənar işlər üzrə müəssisələr və tədbirlər | 137740.4 | 7.7 |
| Metodiki iş, texniki təbliğat, təhsil üzrə sair müəssisələr və tədbirlər | 91343.3 | 5.1 |
| Uşaq evləri | 4360.8 | 0.24 |
| Ümumtəhsil fondu | 1540.7 | 0.1 |
| Mərkəzləşdirilmiş mühasibatlıqların saxlanılması | 12449.4 | 0.7 |
| Mərkəzləşdirilmiş təsərrüfat xidməti qrupunun saxlanılması | 1382.4 | 0.1 |
| Təhsil müəssisələrində proqnozlaşdırılan müqavilələrin bağlanması və başqa növ elmi-tədqiqat, təcrübə-konstruktor işləri üçün vəsait | 8495 | 0.5 |

Cədvəldən göründüyü kimi, təhsilə ayrılan xərclərin böyük əksəriyyəti - 62.8 faizi - məktəb-uşaq bağçalarına, ibtidai, əsas və orta təhsil məktəbləri və gimnaziyalara, 6.8 faizi məktəbəqədər uşaq müəssisələrinə, 7.7 faizi uşaqlarla məktəbdənkənar işlər üzrə müəssisələrə və tədbirlərə ayrılır.




***2005-ci ilin dövlət büdcəsində təhsil xərclərinin təhsilin istiqamətləri arasında bölünməsi***

## *Təhsil xərclərinin təşkilatlar arasında bölünməsi*

Ölkəmizdə təhsil siyasətinin işlənilib hazırlanması və həyata keçirilməsi, təhsil proseslərinin təşkilinə ümumi metodoloji rəhbərlik  Azərbaycan Respublikasının Təhsil Nazirliyinin funksiyasına daxil olsa da, büdcədən təhsilə ayrılan vəsaitin hamısı yalnız bu nazirliyin sərəncamına keçmir. Ona görə ki, heç də bütün tədris müəssisələri Təhsil Nazirliyi qarşısında cavabdeh deyildir. Peşə-ixtisas yönümündən və təyinatından asılı olaraq bir sıra tədris müəssisələri, təşkilatları və ixtisasartırma kursları başqa nazirliklərin tabeçiliyindədir. Məsələn, Səhiyyə Nazirliyinin tabeliyində Həkimləri Təkmilləşdirmə İnstitutu, Orta Tibb İşçilərini Təkmilləşdirmə Məktəbi, 7 tibb məktəbi, Gənclər, İdman və Turizm Nazirliyinin tabeliyində bir ali məktəb, 2 litsey və 6 idman məktəbi, başqa nazirliklərin nəzdində isə ixtisasartırma kursları fəaliyyət göstərir. Həmin müəssisələrə və təşkilatlara ayrılan vəsaitlər müvafiq nazirliklərin sərəncamına keçir. Bir sıra universitetlər muxtar statusa malik olduqlarından onlara ayrılan vəsait dövlət büdcəsində ayrıca maddələrdə göstərilir və bilavasitə onların sərəncamına keçir.

Beləliklə, dövlət büdcəsindən təhsilə ayrılan vəsaitlər aşağıdakı təşkilatlar üzrə bölünür:

1. Ədliyyə Nazirliyi
2. Maliyyə Nazirliyi
3. Vergilər Nazirliyi
4. Səhiyyə Nazirliyi
5. Gənclər, İdman və Turizm Nazirliyi
6. Təhsil Nazirliyi
7. Mədəniyyət Nazirliyi
8. Ekologiya və Təbii Sərvətlər Nazirliyi
9. Tələbə Qəbulu üzrə Dövlət Komissiyası

10. Dövlət Neft Akademiyası

11. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası

12. Dövlət Kənd Təsərrüfatı Akademiyası

13. Bakı Dövlət Universiteti

14. Dövlət Tibb Universiteti

15. Dövlət İqtisad Universiteti

16. Naxçıvan Dövlət Universiteti

17. Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş və Bələdiyyələrə Metodoloji Yardım Mərkəzi.

Təhsil xərclərinin göstərilən qurumlar arasında bölünməsi onların tabeliyində olan təhsil müəssisə və təşkilatlarına ayrılan vəsaitlərin həcminə uyğun olaraq həyata keçirilir. Məsələn, aşağıda qeyd edilən istiqamətlərdəki təhsil müəssisə və təşkilatlarının hamısı Təhsil Nazirliyinin tabeliyindədir:

- *Məktəbəqədər uşaq müəssisələri*
- *Məktəb-uşaq bağçaları, ibtidai, əsas və orta təhsil məktəbləri, gimnaziyalar, litseylər*
- *İnternat məktəbləri*
- *Xüsusi rejimli internat məktəbləri*
- *Xüsusi məktəblər*
- *Texniki-peşə məktəbləri və litseyləri*
- *Xüsusi texniki-peşə məktəbləri və litseyləri*
- *Uşaq evləri*

Deməli, büdcədən həmin istiqamətlərə ayrılan vəsaitlər bütünlüklə Təhsil Nazirliyinin sərəncamına keçir. Bunlardan başqa, "Ümumtəhsil fondu" və "Mərkəzləşdirilmiş təsərrüfat xidməti qrupunun saxlanılması" üçün nəzərdə tutulan vəsaitlər də bu nazirliyin sərəncamında olur. "Mərkəzləşdirilmiş mühasibatlıqların saxlanılması" üçün ayrılan vəsaitin çox cüzi bir hissəsi - 7.6 milyon manatı (0.06 faizi) Səhiyyə Nazirliyinin tabeliyində olan təşkilata, qalan 12 milyard 442 milyon manatı Təhsil Nazirliyinin sərəncamına keçir.

**Orta ixtisas təhsili müəssisələri** üçün nəzərdə tutulan 43.8 milyard manat vəsait aşağıdakı kimi bölünür:

Təhsil Nazirliyi - 35587.5 milyon manat;

Gənclər, İdman və Turizm Nazirliyi - 499.9 milyon manat;

Mədəniyyət Nazirliyi - 1477.3 milyon manat;

Səhiyyə Nazirliyi - 6385.2 milyon manat.




***2005-ci ilin dövlət büdcəsində orta ixtisas təhsili müəssisələri üçün nəzərdə tutulan vəsaitin təşkilatlar arasında bölünməsi***

2005-ci ilin dövlət büdcəsinin "Təhsil xərcləri"ndə **Ali təhsil müəssisələri** üçün ayrılan vəsaitin sərəncamçı təşkilatlar arasında bölünməsini aşağıdakı cədvəl şəklində vermək olar.

**Ali təhsil müəssisələri üçün ayrılan vəsaitin sərəncamçı təşkilatlar arasında bölünməsi**

| Sərəncamçı təşkilatlar | Məbləğ (milyon manat) | Ümumi vəsaitdə payı,% |
|---|---|---|
| Ali təhsil müəssisələri üçün ayrılan vəsait, cəmi<br>O cümlədən: | 118374.8 | 100 |
| Təhsil Nazirliyi | 56315.9 | 47.6 |

| | | |
|---|---|---|
| Gənclər, İdman və Turizm Nazirliyi | 2215.4 | 1.9 |
| Dövlət Neft Akademiyası | 8353.7 | 7.1 |
| Dövlət İdarəçilik Akademiyası | 5096.7 | 4.3 |
| Kənd Təsərrüfatı Akademiyası | 5311.4 | 4.5 |
| Bakı Dövlət Universiteti | 14906.6 | 12.6 |
| Dövlət Tibb Universiteti | 12316.7 | 10.4 |
| Dövlət İqtisad Universiteti | 10933.7 | 9.2 |
| Naxçıvan Dövlət Universiteti | 2924.7 | 2.5 |




2005-ci ilin dövlət büdcəsində "Təhsil xərcləri"ndə **Kurs tədbirləri və ixtisasartırma institutları** üçün ayrılan 11 milyard 678.2 milyon manat vəsait aşağıdakı kimi bölünəcək:



- *Təhsil Nazirliyi - 9199.6 milyon manat*
- *Ekologiya və Təbii Sərvətlər Nazirliyi - 128.4 miyon manat*
- *Mədəniyyət Nazirliyi - 171.1 milyon manat*
- *Səhiyyə Nazirliyi- 2179.1 milyon manat*

**Kadrlar hazırlığı üzrə sair tədris müəssisələri** üçün nəzərdə tutulan 5 milyard 450 milyon manat vəsaitin əksər hissəsi - 80.1 faizi (4 milyard 366.8 milyon manatı) Gənclər, İdman və Turizm Nazirliyinin, 12.0 faizi (655 milyon manatı) Vergilər Nazirliyinin, 6.7 faizi (367.3 milyon manatı) Maliyyə Nazirliyinin sərəncamına keçəcək. Vəsaitin yalnız 60.9 milyon manatı (yaxud 1.1 faizi) Təhsil Nazirliyinin tabeliyində olan müvafiq müəssisələrə çatacaq.




**Uşaqlarla məktəbdənkənar işlər üzrə müəssisələr və tədbirlər**in maliyyələşdirilməsi üçün ayrılacaq 137 milyard 740 milyon manat Təhsil və Mədəniyyət nazirliklərinin arasında bölünür.

Ona görə ki, belə müəssisələr və həmin fəaliyyət istiqamətində tədbirlər bu iki nazirliyin tabeliyindədir.

Mədəniyyət Nazirliyi - 78 mlrd.103 mln.manat

Təhsil Nazirliyi -59 milyard 637 milyon manat




2005-ci ildə büdcədən təhsil sahəsində **Metodiki iş, texniki təbliğat, təhsil üzrə sair müəssisələr və tədbirlər** istiqamətində fəaliyyətin maliyyələşdirilməsi üçün sərf ediləcək 91 milyard 343 milyon manatın 95.9 faizi (87 milyard 587 milyon manat) Təhsil Nazirliyinin payına düşəcək. Vəsaitin yerdə qalan 4.1 faizi (3 milyard 756 milyon manat) Ədliyyə Nazirliyi (850.6 milyon manat, yaxud 0.93 faiz), Səhiyyə Nazirliyi (21.3 milyon manat, yaxud 0.02 faiz), Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (2 milyard 114.3 milyon manat, yaxud 2.3 faiz) və Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş və Bələdiyyələrə Metodoloji Yardım Mərkəzi (770 milyon manat, yaxud 0.84 faiz) arasında bölünür.




Büdcədən **Təhsil müəssisələrində proqnozlaşdırılan müqavilələrin bağlanması və başqa növ**

**elmi-tədqiqat, təcrübə-konstruktor işləri** üçün ayrılan vəsait Təhsil Nazirliyinin tabeliyində olan ali məktəblərlə muxtar statusa malik universitetlər arasında aşağıdakı cədvəldəki kimi bölünür:

| Sərəncamçı təşkilatlar | Məbləğ (milyon manat) | Ümumi vəsaitdə payı, %-lə |
|---|---|---|
| Təhsil müəssisələrində proqnozlaşdırılan müqavilələrin bağlanması və başqa növ elmi-tədqiqat, təcrübə-konstruktor işləri üçün vəsait, cəmi | 8495 | 100 |
| O cümlədən: | | |
| Təhsil Nazirliyi | 4075.8 | 48.0 |
| Dövlət Neft Akademiyası | 1138.4 | 13.4 |
| Kənd Təsərrüfatı Akademiyası | 175.1 | 2.1 |
| Bakı Dövlət Universiteti | 2029.6 | 23.9 |
| Dövlət Tibb Universiteti | 854.9 | 10.0 |
| Dövlət İqtisad Universiteti | 176.2 | 2.1 |
| Naxçıvan Dövlət Universiteti | 45 | 0.5 |




Nəhayət, 2005-ci ilin dövlət büdcəsindən təhsilin maliyyələşdirilməsinə ayrılacaq vəsaitin sərəncamçı təşkilatlar üzrə bölgüsünü ümumiləşdirilmiş şəkildə aşağıdakı cədvəl kimi verə bilərik.

**2005-ci ilin dövlət büdcəsində "Təhsil xərcləri"nin sərəncamçı təşkilatlar üzrə bölgüsü**

| Təşkilatların adları | Məbləğ, (mln. manat) | Təhsil xərclərində payı, faizlə |
|---|---|---|
| Təhsil xərcləri, cəmi o cümlədən: | 1782215.3 | 100 |
| 1. Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 128.4 | 0.01 |
| 2. Ədliyyə Nazirliyi | 850.6 | 0.05 |
| 3. Gənclər, İdman və Turizm Nazirliyi | 7032.1 | 0.4 |
| 4. Maliyyə Nazirliyi | 367.3 | 0.02 |
| 5. Mədəniyyət Nazirliyi | 79751.5 | 4.5 |
| 6. Səhiyyə Nazirliyi | 8593.3 | 0.5 |
| 7. Təhsil Nazirliyi | 1617690.3 | 90.8 |
| 8. Vergilər Nazirliyi | 655 | 0.04 |
| 9. Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 2114.3 | 0.1 |
| 10. Dövlət Neft Akademiyası | 9492.1 | 0.5 |
| 11. Dövlət İdarəçilik Akademiyası | 5096.7 | 0.3 |
| 12. Dövlət Kənd Təsərrüfatı Akademiyası | 5486.4 | 0.3 |
| 13. Bakı Dövlət Universiteti | 16936.2 | 0.95 |
| 14. Dövlət Tibb Universiteti | 13171.6 | 0.7 |
| 15. Dövlət İqtisad Universiteti | 11109.9 | 0.6 |
| 16. Naxçıvan Dövlət Universiteti | 2969.7 | 0.17 |
| 17. Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş və Bələdiyyələrə Metodoloji Yardım Mərkəzi | 770.0 | 0.04 |

Beləliklə, cədvəldən də göründüyü kimi, büdcədən təhsilə ayrılan bütün xərclərin demək olar 91 faizi Təhsil Nazirliyinin tabeliyində olan təhsil obyektlərinə, müəssisə və təşkilatlara çatır. Qalan vəsaitin yarısı, yəni 4.5 faizi Mədəniyyət Nazirliyinin

təhsil obyektlərinə, qalan hissəsi isə yerdə qalan 15 qurumun sərəncamına keçir.




***2005-ci ildə dövlət büdcəsində nəzərdə tutulan təhsil xərclərinin təşkilatlar arasında bölünməsi***

### *Mərkəzləşdirilmiş və yerli xərclər*

Yeri gəlmişkən bir məsələni də qeyd etməliyik ki, təhsil müəssisə və obyektlərinin böyük əksəriyyəti (məktəbəqədər müəssisələr, uşaq bağçaları, orta məktəblər, uşaq evləri və s.) heç də bilavasitə mərkəzə, yəni nazirliklərə deyil, həmin nazirliklərin rayonlar səviyyəsində yerli şöbələrinə tabedir. Buna görə də təhsil xərcləri birbaşa nazirliyin sərəncamına deyil, əsasən rayon səviyyəsində şöbələrin sərəncamına keçir. Bu halda birbaşa nazirliklər tərəfindən sərəncam verilən xərclər mərkəzləşdirilmiş, rayon şöbələrinin sərəncamı ilə istifadə olunan vəsaitlər isə yerli xərclər hesab olunur.

Məsələn, 2003-cü ilin dövlət büdcəsindən təhsilin maliyyələşdirilməsinə istifadə olunan vəsaitin (hesabat üzrə 1 trilyon 174 milyard manat) 85.5 faizinə rayonlarda olan yerli şöbələr, 14.5 faizinə isə nazirliklər sərəncam veriblər.




***Təhsil xərclərinin mərkəzləşdirilmiş və yerli xərclər kimi bölünməsi***




***Büdcədən Təhsil Nazirliyinin sərəncamına ayrılmış təhsil xərclərinin mərkəzləşdirilmiş və yerli xərclər kimi bölünməsi (2003-cü il)***

Təhsilin istiqamətləri üzrə götürsək, məsələn, məktəbəqədər uşaq müəssisələri, uşaq evləri, orta məktəblər (yəni məktəb-uşaq bağçaları, ibtidai, əsas və orta təhsil məktəbləri, gimnaziyalar və litseylər), ümumtəhsil fondu, mərkəzləşdirilmiş mühasibatlıqların saxlanılması xərclərinə demək olar tamamilə yerli səviyyədə, ali və orta ixtisas təhsili müəssisələri, texniki-peşə və xüsusi texniki-peşə məktəbləri və litseyləri, kadr tədbirləri və ixtisasartırma institutları, habelə kadrlar hazırlığı üzrə sair tədris müəssisələri istiqamətləri üçün ayrılan vəsaitlərə isə demək olar tamamilə mərkəzləşdirilmiş qaydada

sərəncam verilir. Qalan istiqamətlər üzrə vəsaitlər mərkəzləşdirilmiş və yerli xərclər arasında paylanır. Məsələn, 2003-cü ildə büdcədən xüsusi məktəblərə ayrılmış vəsait mərkəzləşdirilmiş və yerli xərclər kimi bölünür.

## Təhsil xərclərinin iqtisadi təsnifatı

Təhsilin istiqamətindən (növündən) və sərəncamçı təşkilatdan asılı olmayaraq büdcədən təhsilə ayrılan vəsaitlər təhsil müəssisə və təşkilatlarında iqtisadi təyinatı üzrə istifadə olunur: təhsil işçilərinə əmək haqqı verilir, təhsil prosesinin təşkili üçün zəruri mallar və tədris vasitələri alınır, kommunal, nəqliyyat və başqa xidmətlərin haqqı ödənilir, məktəblər və başqa təhsil obyektləri tikilir, təmir olunur və s. Buna görə də təhsil xərcləri planlaşdırılarkən onlar əvvəlcə iqtisadi məzmununa görə qruplaşdırılır və büdcədə bu şəkildə nəzərə alınır. Büdcə vəsaitləri təhsil müəssisələrinə məhz konkret olaraq müəyyənləşdirilmiş belə son təyinat istiqamətlərinə uyğun olaraq və planlaşdırılmış hədlərdə buraxılır.

Gümüş varınsa, çalış xalqa faydası yetsin
Nə faydası ağacın yoxsa şaxənin səməri?
***Füzuli***

İqtisadi məzmunu üzrə təhsil xərclərini ümumi şəkildə cari və əsaslı xərclər kimi qruplaşdırmaq olar. Cari xərclərə əməyin ödənilməsi, malların alınması və xidmətlərin haqqının ödənilməsi, habelə subsidiyalar və cari ödənişlər, əsaslı xərclərə isə əsas fondlara əsaslı vəsait qoyuluşu, yəni əsas

vəsaitlərin alınması, əsaslı tikinti, əsaslı təmir aid edilir.

2005-ci ilin dövlət büdcəsində təhsil xərclərinin (1 trilyon 782 milyard manat) iqtisadi quruluşu aşağıdakı kimidir:




Cari xərclərin özü iqtisadi məzmununa görə iki qrupa ayrılır:

- *Əməyin ödənişi, malların alınması və xidmətlərin haqqının ödənilməsi;*
- *Subsidiyalar və cari ödənişlər (transfertlər).*

Təhsil xərclərinin 1.7 trilyon manatı əməyin ödənişi, malların alınması və xidmətlərin haqqının ödənilməsi (bütün xərclərin 96.2 faizi), 39.9 milyard manatı isə subsidiyalar və cari ödənişlər (transfertlər) üçün nəzərdə tutulur. Cari xərclərin (1 trilyon 754 milyard manat) strukturu belədir:



**Əməyin ödənişi, malların alınması və xidmətlərin haqqının ödənilməsi maddəsi**nə aşağıdakı xərclər aid edilir:

1. Əməyin ödənişi fondu;
2. Əmək haqqına üstəlik;
3. Malların alınması və xidmətlərin haqqının ödənilməsi.

2005-ci ilin büdcəsində təhsil xərclərinin əməyin ödənişi, malların alınması və xidmətlərin haqqının ödənilməsinə yönəldilən hissəsi aşağıdakı kimi bölünür:




I. **Əməyin ödənişi fondu xərcləri**nə daxil edilir:

1. Ştatda olan işçilərin əmək haqqı:

- *bütün ştat işçilərinə müəyyən edilmiş vəzifə maaşı (o cümlədən, müəllimlərin əməyinin saathesabı ödənilməsi);*
- *işçilərin vəzifə maaşına əlavələr (uzun müddət xidmətə görə ödənişlər və s.);*
- *işçilərə əlavə iş üçün ödənişlər (təhsil müəssisələri müəllimlərinin əlavə iş üçün ödənişlərinin bütün növləri - təhsil kabinetləri və laboratoriyalarına rəhbərlik edilməsi üçün, sinif rəhbəri vəzifəsinin yerinə yetirilməsi üçün, şagirdlərin yazı işlərinin yoxlanılması üçün və sairə);*
- *elmi dərəcə və fəxri adlara görə əlavə ödənişlər.*

2. Ştatdankənar işçilərin əmək haqqı (təşkilatın ştatında olmayan və müqavilə əsasında işlərin yerinə yetirilməsi üçün cəlb olunan şəxslərin əməyinin ödənilməsi);

3. Əməyin ödənilməsi ilə bağlı sair pul ödənişləri (maddi yardımlar və yuxarıda göstərilən ödənişlərə aid edilməyən əməyin ödənilməsinin sair növləri);

4. Əməyin ödənişi üzrə nəzərdə tutulan artım.

2005-ci ilin büdcəsində bütün təhsil xərclərinin 1 trilyon 164.2 milyard manatı (yaxud 65.3 faizi) əməyin ödənişi fonduna yönəldilir. Həmin vəsait belə bölünür:

- *1 trilyon 19 milyard manatı - ştatda olan işçilərin əmək haqqına (87.5 faizi),*
- *776.5 milyon manatı - ştatdankənar işçilərin əmək haqqına,*
- *338 milyon manatı - əməyin ödənilməsi ilə bağlı sair pul ödənişləri,*
- *144.1 milyard manatı - əməyin ödənişi üzrə nəzərdə tutulan artım (12.4 faiz).*

**II. Əmək haqqına üstəlik xərcləri**nə müəyyənləşdirilmiş normativlərə əsasən işəgötürənlərin sosial müdafiə ayırmaları üzrə xərclər (bunlar işçi və qulluqçuların əmək haqqına üstəlik şəklində hesablanır) aid edilir:

- *Dövlət Sosial Müdafiə Fonduna ayırmalar;*
- *İcbari dövlət sığortası;*
- *İcbari tibbi sığorta.*

2005-ci ilin büdcəsində bütün təhsil xərclərinin 14.4 faizi, yaxud 256 milyard 123.5 milyon manatı əmək haqqına üstəlik xərcləri üçün nəzərdə tutulur ki, bunun 0.3 milyon manatı icbari dövlət sığortasına, qalanı isə Dövlət Sosial Müdafiə Fonduna ayırmalara yönəldiləcək. İcbari tibbi sığorta üçün vəsait nəzərdə tutulmayıb.

**III. Malların alınması və xidmətlərin haqqının ödənilməsi xərclərinə** aşağıdakılar aid edilir:

1. Dəftərxana ləvazimatı, cari təsərrüfat məqsədləri üçün mal və materiallar alınması (dəftərxana xərcləri: dəftərxana, rəsmxətt və yazı ləvazimatı və materialları alınması, mühasibat, statistika kargüzarlıq kitablarının, blank və cədvəllərin hazırlanması və alınması; sənədlərin cildlənməsi və tikilməsi, mətbəə və nəşr xərcləri; uçotun mexanikləşdirilməsi üzrə xidmətlərin ödənilməsi; büdcə təşkilatları və mərkəzləşdirilmiş mühasibatlıqlar üçün hesablama mərkəzləri və maşın hesablama stansiyaları tərəfindən yerinə yetirilən işlərin ödənilməsi, sair dəftərxana xərcləri; təsərrüfat xərcləri: təsərrüfat məqsədi ilə istifadə edilən material və əşyaların alınması; təsərrüfat təyinatlı qiymətindən asılı olmayaraq bir ildən az istifadə olunan tez xarab olan əşyaların alınması; müşavirə və konfransların keçirilməsi ilə bağlı təsərrüfat xərcləri, müxtəlif cür başqa təsərrüfat xərcləri və s.);



2. Dərman və sarğı ləvazimatlarının alınması;

3. Yumşaq inventar və paltarların alınması, təmiri xərclərinin ödənilməsi (paltarların, ayaqqabıların, geyim paltarlarının və çarpayı ləvazimatının, xüsusi

(müdafiə) geyimin alınması, hazırlanması, təmiri xərcləri, pəncərə üçün pərdə alınması xərcləri);

4. Ərzaq məhsulları alınması (uşaq evlərində, məktəbəqədər uşaq müəssisələrində, texniki-peşə məktəblərində və litseylərində, xüsusi-peşə məktəblərində və litseylərində, internat məktəblərində, günü uzadılmış məktəblərdə, yemək xərcləri aid edilir);

5. Ezamiyyələr və xidməti səfərlər, işçilərə kompensasiya ödənişləri (ezamiyyələr və xidməti səfərlər zamanı gediş, gündəlik və mənzil xərcləri, kompensasiya ödənişləri, işçilərin hərəkəti zamanı gündəlik və gediş xərcləri, kurslara və təhsil müəssisələrinə, sessiyalara, müşavirə və konfranslara ezamiyyələr üzrə xərclərin ödənilməsi aid edilir);

6. Nəqliyyat xidmətləri haqqının ödənilməsi (təşkilatlara məxsus olan və kənardan cəlb edilmiş nəqliyyat vasitələri üçün yanacaq və sürtgü materiallarının alınması, ehtiyat hissələrinin alınması və cari təmiri, texniki baxışdan keçirilməsi ilə bağlı xərclər, nəqliyyat vasitələrinin icarə haqlarının ödənilməsi xərcləri);

7. Rabitə xidmətləri haqqının ödənilməsi (telefon və şəhərlərarası danışıqlar üçün abonent haqlarının, bütün növ poçt göndərişləri, o cümlədən teleqram, radioqram, pul göndərişləri və s. haqlarının ödənilməsi xərcləri);

8. Kommunal xidmətləri haqqının ödənilməsi (bütün növ kommunal (isitmə, qızdırıcı, su, qaz, elektrik enercisi, kanalizasiya və s.) xidmətləri haqqının ödənilməsi xərcləri);

9. Elmi-tədqiqat təşkilatlarının göstərdiyi xidmətlərin haqqının ödənilməsi;

10. İnventar və avadanlığın alınması, təmiri xərclərinin ödənilməsi (məktəb və sair təhsil müəssisələrinin laboratoriyaları və kabinetləri üçün təhsil

avadanlığının, elmi-tədqiqat müəssisələrində, tədris ocaqlarında və uşaq müəssisələrində təhsil və elmi məqsədlər üçün tibb və baytarlıq avadanlıqları və alətləri, aparat, cihaz, maşın, dəzgah və sair xüsusi avadanlıqların, xüsusi rəsmxətt stollarının və başqa istehsalat avadanlıqlarının, məktəblərdə hərbi hazırlıq işlərinə aid inventar və ləvazimatların alınması, habelə avadanlıqların və ləvazimatların quraşdırılması və təmiri xərcləri);

11. Binaların cari təmiri xərclərinin ödənilməsi;
12. Sair cari xərclər. Buraya daxil edilir:

- *təhsil müəssisələrində bədən tərbiyəsi tədbirlərinin və kütləvi müdafiə işlərinin aparılması;*
- *incəsənət üzrə müvəqqəti sərgilərin təşkili;*
- *ali və orta ixtisas təhsili idarələrini bitirən gənc mütəxəssislərin məktəbə, mədəniyyət və tibbi idarələrə işə göndərilməsi ilə bağlı gündəlik və yol xərclərinin ödənilməsi;*
- *şagirdlərə fəxri fərmanların, medalların, eləcə də idman yarışları iştirakçılarına mükafatların verilməsi;*
- *müxtəlif mükafatlandırma nişanlarının hazırlanması;*
- *ümumtəhsil fondu hesabına tədbirlər;*
- *ixtisasartırma müəssisələrində dinləyicilərin ixtisas artımı və hazırlıq işləri;*
- *təhsil alanların təhsil və istehsalat təcrübəsi xərcləri, aspirantlar və təhsil alanlar üçün, o cümlədən uşaq müəssisələrində uşaqlarla məşğələlər üçün müxtəlif ləvazimatların, məktəb və rəsmxətt ləvazimatlarının, materialların və təhsil, laboratoriya məşğələləri üçün inventarların alınması xərcləri;*
- *təhsil ekskursiyaları;*
- *təhsil proqramlarının nəşri və alınması;*
- *tədris müəssisələri üçün sinif jurnallarının, blankların, diplomların, şəhadətnamələrin, tələbə*

*biletlərinin, zaçot kitabçalarının və digər sənədlərin alınması;*

- *şagirdlərin düşərgə toplantılarının keçirilməsi;*
- *şagirdlərin yeni qəbulunun təşkili;*
- *şagirdlərin istehsalat təcrübəsinin ödənilməsi;*
- *şagirdlərin yol haqqının və onların yolda və praktika bazalarında olduqları müddətdə gündəlik yemək xərclərinin ödənilməsi;*
- *tədris müəssisələri tərəfindən elmi-tədqiqat işləri üçün lazım olan təcrübə heyvanlarının və mal-qaranın alınması, gətirilməsi və saxlanılması, elmi sessiyaların, qurultayların, konfransların, iclasların, habelə şagirdlər, xəstələr və əlillər arasında mədəni-maarif xarakterli tədbirlərin təşkili və keçirilməsi;*
- *dissertasiyaların müdafiəsi;*
- *tədris müəssisələrinin nəzdindəki eksperimental emalatxanaların xidmətinin ödənilməsi;*
- *bank xidmətləri haqqının ödənilməsi;*
- *muzey ekspozisiyalarının və sərgilərin təşkili zamanı müvəqqəti xarakter daşıyan və köməkçi materiallar olan xəritələrin, sxemlərin, diaqramların, eskizlərin, maketlərin və digər əşyaların hazırlanması;*
- *sair əməliyyat xərclərinin və məsrəflərin ödənilməsi;*
- *müxtəlif cür sair cari xərclər;*
- *kitabxanalar üçün kitab alınması xərcləri;*
- *açıq kitabxana şəbəkəsi, tədris müəssisələri, məktəblər, xəstəxanalar və digər idarələrdə fəaliyyət göstərən kitabxanalar üçün kitab alınması; kitabxana fonduna aid edilən jurnal və nəşrlərin alınması; kitabxanalar üçün kitabxana əşyalarının və uçot sənədlərinin alınması.*

2005-ci ilin büdcəsində bütün təhsil xərclərinin 293 milyard 388.9 milyon manatı (16.5 faizi) malların alınması və xidmətlərin haqqının ödənilməsi üçün nəzərdə tutulur. Həmin vəsait aşağıdakı kimi bölünür.

## Təhsil xərclərinin malların alınması və xidmətlərin haqqının ödənilməsinə ayrılan hissəsinin bölünməsi

| Xərclərin iqtisadi məzmunu | Məbləğ (milyon manat) | Ümumi xərclərdə payı, faizlə |
|---|---|---|
| Malların alınması və xidmətlərin haqqının ödənilməsi xərcləri, cəmi<br>O cümlədən: | 293388.9 | 100 |
| Dəftərxana ləvazimatı, cari təsərrüfat məqsədləri üçün mal və materialların alınması | 18079.6 | 6.2 |
| Dərman və sarğı ləvazimatlarının alınması | 7.5 | 0.0 |
| Yumşaq inventar və paltarların alınması, təmiri xərclərinin ödənilməsi | 5937.7 | 2.0 |
| Ərzaq məhsullarının alınması | 59578.8 | 20.3 |
| Ezamiyyələr və xidməti səfərlər, işçilərə kompensasiya ödənişləri | 5167.1 | 1.8 |
| Nəqliyyat xidmətləri haqqının ödənilməsi | 3448.8 | 1.2 |
| Yanacaq və sürtgü materiallarının alınması | 2701.9 | |
| Sair nəqliyyat xidmətləri haqqının ödənilməsi | 746.9 | |
| Rabitə xidmətləri haqqının ödənilməsi | 2375 | 0.7 |
| Kommunal xidmətləri haqqının ödənilməsi | 71209.3 | 24.3 |
| Elektrik enerjisi haqqının ödənilməsi | 20938.1 | |
| Qaz haqqının ödənilməsi | 14176.7 | |
| Su haqqının ödənilməsi | 14024.0 | |
| İstilik enerjisi (yanacaq) haqqının ödənilməsi | 14960.9 | |
| Binaların icarə haqqının ödənilməsi | 1168.4 | |
| Sair kommunal xidmətləri haqqının ödənilməsi | 3617.2 | |
| Kanalizasiya haqqının ödənilməsi | 2324.1 | |

| | | |
|---|---|---|
| Elmi-tədqiqat təşkilatlarının göstərdiyi xidmətlərin ödənilməsi | 53.0 | 0.0 |
| İnventar və avadanlığın alınması, təmiri xərclərinin ödənilməsi | 56177.5 | 19.1 |
| Binaların cari təmiri xərclərinin ödənilməsi | 6640.0 | 2.3 |
| Sair cari xərclər | 64714.6 | 22.1 |

Cədvəldən göründüyü kimi 2005-ci ildə büdcədən təhsil müəssisələri üçün inventar və avadanlığın alınması və təmiri xərclərinin ödənilməsinə 56.2 milyard manat vəsait ayrılacaq. Bunun 20.0 milyard manatı məktəblərin kompüterləşdirilməsi üçün nəzərdə tutulub.

Cari xərclərin digər hissəsi subsidiyalar və cari ödənişlərdən (transfertlər) ibarətdir. Buraya təhsil sferasında işləyənlərə və təhsil alanlara verilən dövlət müavinəti və kompensasiyalar, pensiya və təqaüdlərin ödənilməsi, şəhid ailələrinə birdəfəlik maddi yardım və sair ödənişlər aid edilir. 2005-ci ilin büdcəsində bütün təhsil xərclərinin 39 milyard 882.4 milyon manatı (2.2 faizi) bu istiqamətlərə yönəldilir. Bunun 36 milyard 458.7 milyon manatı (91.4 faiz) təqaüdlərin ödənilməsinə, qalan 3 milyard 423.7 milyon manatı (8.6 faiz) isə müavinətlərin ödənilməsinə gedəcək.




***Təhsil xərclərində subsidiya və cari ödənişlər***

Təhsil xərclərinin cüzi bir hissəsi - 1.6 faizi əsaslı xərclər hesab olunan əsas fondlara əsaslı vəsait qoyuluşuna yönəldilir.

Əsas fondlara əsaslı vəsait qoyuluşu maddəsinə aşağıdakı xərclər aid edilir:

- *Əsas vəsaitlərin alınması (təşkilatlar üçün istehsalat və qeyri-istehsalat avadanlıqlarının və uzun müddət istifadə olunan əşyaların, bina və tikililərin, nəqliyyat vasitələrinin alınması xərcləri);*
- *Əsaslı tikinti (dövlət əsaslı vəsait qoyuluşu hesabına təhsil, habelə sosial-mədəni və məişət təyinatlı obyektlərin və s. tikintisi və yenidən qurulması, təhsil obyektlərinin genişləndirilməsi və s.);*
- *Əsaslı təmir.*

2005-ci ilin büdcəsinin təhsil xərclərində əsas fondlara əsaslı vəsait qoyuluşu üçün 28 milyard 623.8 milyon manat ayrılır. Həmin vəsaitin 28 milyard 43.8 milyon manatı (98.0 faiz) əsaslı təmir, qalan 575.0 milyon manatı (2.0 faiz) isə əsas vəsaitlərin alınması üçün nəzərdə tutulur. Bu sonuncu vəsaitin 390.0 milyon manatı nəqliyyat vasitələrinin, qalan 185.0 milyon manatı isə təhsil müəssisələri üçün istehsal avadanlığının alınmasına yönəldiləcək.

Beləliklə, 2005-ci ilin büdcəsində təhsilə ayrılan xərclərin yekun iqtisadi təsnifatını ümumiləşdirilmiş şəkildə aşağıdakı cədvəl kimi vermək olar.

**2005-ci ilin dövlət büdcəsində (proqnoz) təhsilə ayrılan xərclərin iqtisadi təsnifatı**

| Xərclərin iqtisadi məzmunu | Məbləğ (mln.manat) |
|---|---|
| **Təhsil xərcləri, cəmi** | **1782215.3** |
| **Əməyin ödənişi, malların alınması və xidmətlərin haqqının ödənilməsi** | **1713709.1** |
| Əməyin ödənişi fondu | 1164196.7 |

| | |
|---|---|
| Ştatda olan işçilərin əmək haqqı | 1019008.8 |
| Şətatdankənar işçilərin əmək haqqı | 776.5 |
| Əməyin ödənilməsi ilə bağlı sair pul ödənişləri | 338 |
| Əməyin ödənişi üzrə nəzərdə tutulan artım | 144073.4 |
| Əmək haqqına üstəlik | 256123.5 |
| Dövlət Sosial Müdafiə Fonduna ayırmalar | 256123.3 |
| İcbari dövlət sığortası | 0.3 |
| Malların alınması və xidmətlərin haqqının ödənilməsi | 293388.9 |
| Dəftərxana ləvazimatı, cari təsərrüfat məqsədləri üçün mal və materialların alınması | 18079.6 |
| Dərman və sarğı ləvazimatlarının alınması | 7.5 |
| Yumşaq inventar və paltarların alınması, təmiri xərclərinin ödənilməsi | 5937.7 |
| Ərzaq məhsullarının alınması | 59578.8 |
| Ezamiyyələr və xidməti səfərlər, işçilərə kompensasiya ödənişləri | 5167.1 |
| Nəqliyyat xidmətləri haqqının ödənilməsi | 3448.8 |
| Yanacaq və sürtgü materiallarının alınması | 2701.9 |
| Sair nəqliyyat xidmətləri haqqının ödənilməsi | 746.9 |
| Rabitə xidmətləri haqqının ödənilməsi | 2375 |
| Kommunal xidmətləri haqqının ödənilməsi | 71209.3 |
| Elektrik enerjisi haqqının ödənilməsi | 20938.1 |
| Qaz haqqının ödənilməsi | 14176.7 |
| Su haqqının ödənilməsi | 14024.0 |
| İstilik enerjisi (yanacaq) haqqının ödənilməsi | 14960.9 |
| Binaların icarə haqqının ödənilməsi | 1168.4 |
| Sair kommunal xidmətləri haqqının ödənilməsi | 3617.2 |
| Kanalizasiya haqqının ödənilməsi | 2324.1 |
| Elmi-tədqiqat təşkilatlarının göstərdiyi xidmətlərin haqqının ödənilməsi | 53.0 |

| | |
|---|---|
| İnventar və avadanlığın alınması, təmiri xərclərinin ödənilməsi | 56177.5 |
| Binaların cari təmiri xərclərinin ödənilməsi | 6640.0 |
| Sair cari xərclər | 64714.6 |
| **Subsidiyalar və cari ödənişlər (transfertlər)** | **39882.4** |
| Əhaliyə ödənişlər | 39882.4 |
| Müavinətlərin ödənilməsi | 3423.7 |
| Təqaüdlərin ödənilməsi | 36458.7 |
| **Əsas fondlara əsaslı vəsait qoyuluşu** | **28623.8** |
| Əsas vəsaitlərin alınması | 575.0 |
| Nəqliyyat vəsaitlərinin alınması | 390.0 |
| Dövlət müəssisə və təşkilatları üçün istehsal avadanlığının və uzun müddət istifadə olunan əşyaların alınması | 185.0 |
| **Əsaslı təmir** | **28048.8** |
| İstehsalat obyektlərinin əsaslı təmiri | 5.0 |
| Sosial-mədəni və məişət təyinatlı obyektlərin əsaslı təmiri | 28043.8 |

Qeyd edək ki, Təhsil Nazirliyinin aparatının və rayon şöbələrinin saxlanması xərcləri təhsil xərclərinə aid deyil. Bunlar icra hakimiyyəti orqanlarının saxlanması xərclərində nəzərə alınır.





## III. Təhsil xərcləri hansı meyarla müəyyən olunur

Bildiyiniz kimi, dövlət büdcəsindən ayrı-ayrı istiqamətlər üzrə vəsaitlərin bölgüsü müxtəlif norma və normativlər əsasında aparılır. Bu normativlər idarə və təşkilatların hər birinə ayrı-ayrılıqda dövlət büdcəsindən maliyyələşmənin həcmini müəyyənləşdirmək, həm də büdcənin icrası mərhələsinə nəzarət etmək imkanı verir.

Təhsil xərclərinin müəyyən olunması da çoxsaylı texniki-iqtisadi göstəricilər və müxtəlif normativlər əsasında həyata keçirilir. Burada texniki-iqtisadi göstəricilər dedikdə, təhsil müəssisələrinin maliyyə-təsərrüfat sənədləri nəzərdə tutulur. Həmin sənədlərə müəssisənin texniki pasportu, əsas vəsaitlərin inventar siyahısı, kitabxana fondunun inventar kitabı, istismarda olan azqiymətli, tezköhnələn əşyaların hərəkətinin uçot cədvəli və s. daxildir. Texniki pasportda müəssisənin tədris və təsərrüfat binalarının, kommunikasiya (su, kanalizasiya, istilik, elektrik, qaz və telefon) xətlərinin vəziyyəti əks etdi-

rilir. Maliyyə ehtiyaclarının müəyyən olunması zamanı texniki pasportda qeyd olunan göstəricilərlə yanaşı, müəssisənin ehtiyacı üçün materialların verilməsi cədvəlindən də istifadə edilir. Həmin cədvəli hər il təhsil müəssisəsinin rəhbəri hazırlayaraq yuxarı təşkilatara və ya maliyyə orqanlarına təqdim edir. Bundan başqa, bütün orta təhsil müəssisələri hər il sentyabrın 5-dək "Dövlət statistika hesabatı" adlı formanı dolduraraq rayon təhsil şöbələrinə, onlar isə maliyyə orqanlarına təqdim edirlər. Həmin sənəddə orta təhsil müəssisələrinin xərc ehtiyaclarını qiymətləndirmək üçün aşağıdakı vacib göstəricilər əks olunur:

- *məktəbdə siniflərin sayı;*
- *şagirdlərin sayı;*
- *məktəb binasının ümumi sahəsi;*
- *sinif otaqlarının (tədris kabinetləri və laboratoriyalar daxil olmaqla) sayı və onların sahəsi;*
- *kompüterlərin, həmçinin internetə qoşulan kompüterlərin sayı;*
- *dərs növbələrinin sayı;*
- *pedaqoji işçilər haqqında məlumat;*
- *tədris emalatxanalarının sayı və s.*

Bundan əlavə, təhsil müəssisələrinin istifadə etdikləri elektrik və istilik enerjisinin, təbii qazın, suyun və rabitə xidmətlərinin limitləri Nazirlər Kabinetinin 13 aprel 1998-ci il tarixli 74 saylı qərarı ilə tənzimlənir. Qərara əsasən elektrik və istilik, həmçinin qaz və su paylaşdırıcı şəbəkələrin, rabitə xidməti göstərən müəssisələrin rəhbərlərilə təhsil təşkilatlarının rəhbərləri və icra hakimiyyətləri birlikdə dövlət büdcəsindən həmin məqsəd üçün ayrılmış vəsait çərçivəsində müvafiq il üzrə limitlər müəyyənləşdirib təsdiq edir.

Ezamiyyə xərclərinin hesablanması üçün normativ kimi Nazirlər Kabinetinin 66 saylı qərarından istifadə olunur. Həmin qərara əsasən, ölkə daxilində ezamiyyə xərclərinin normaları bu cür müəyyən olunub: bir gün üçün gündəlik xərclər - 15 min manat, kommunal xərcləri Bakı şəhərində 60 min manat, respublikanın digər inzibati-ərazi vahidlərində 30 min manatdan çox olmamaqla, nəqliyyat xərcləri (taksi istisna olmaqla) təqdim olunan sənədlər əsasında.



Təhsil sferasında malların alınması və xidmətlərin göstərilməsi üçün büdcə vəsaitlərinin məcmusunda xüsusi çəkisi, adətən elə də yüksək olmur. Məsələn, 2003-cü ildə sözügedən xərclərin təhsil xərclərində payı 18,5 faiz təşkil edib.

Qeyd olunanlardan əlavə, Təhsil Nazirliyinin 4 aprel 1997-ci il tarixli 198 saylı əmrilə təsdiqlənmiş “Ali təhsil müəssisələrinin inşaat, maddi-texniki təchizat, kadr potensialı və strukturuna qoyulan minimum normalar” adlı sənəd də qüvvədədir. Həmin sənəddə ali təhsil müəssisələrinin maliyyə ehtiyacının qiymətləndirilməsi üçün bir sıra mühüm normalar mü-

əyyən olunub. Tədris yükü ilə bağlı müəyyənləşdirilən normativlərə görə professor-müəllim heyətinin illik bir stafka üçün dərs yükü 450-500 saatdır. Müəllimin dərs yükünə mühazirə, məşğələ, laboratoriya, seminar, məsləhət saatları, həmçinin kurs, diplom və dissertasiya işlərinə rəhbərlik, imtahan üçün ayrılan saatlar daxildir. Bundan əlavə, ali təhsil müəssisələrində bir tələbəyə düşən faydalı sahənin minimum həcmi 5 kvatrat metr müəyyən olunub. Tədris qruplarında tələbələrin sayı isə 12-30 nəfər ola bilər. Sənəddə ali təhsil müəssisələrinin struktur və ştat vahidləri üzrə normalar da müəyyən olunub. Məsələn, həmin normalara əsasən aspirantura şöbəsi - aspirantların sayı 100 nəfərdən çox olduqda yaradılır. Müəyyən ixtisaslar üzrə fakültələr tələbələrin sayı 300 nəfərdən çox olduqda, kafedralar isə həmin istiqamət üzrə dərs yükü minimum 3000 saat olduqda yaradılır. Öz növbəsində tələbələrin sayı 800 nəfərdən çox olduqda, əyani şöbədə təhsil alan əlavə hər 500 nəfər üçün bir dekan müavini ştatı əlavə olunur.



Təhsil xərclərinin əhəmiyyətli hissəsi əmək ödənişi xərclərindən ibarətdir. Ötən il həmin xərclərin maliyyələşdirmədə payı 81,5 faiz təşkil edib. Təhsil sferası üzrə məcmü əmək haqqı fondunun hesablanması üçün normativ kimi aşağıdakı sənədlərdən istifadə olunur:

- *Tarif (vəzifə) maaşlarının hesablanması üçün Vahid Tarif Cədvəli;*
- *Təhsil işçilərinin Tarif-İxtisas Sorğu Kitabçası;*
- *Sinif və dərnək rəhbərliyi, həmçinin yoxlama işləri üçün əlavə ödənişlərin məbləğinin müəyyən olunmsı ilə bağlı Təhsil, Maliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin birgə hazırladığı müvafiq təlimat;*
- *Elmi dərəcələr və fəxri adlara görə əlavə ödənişlərə dair dövlət başçısının fərman və sərəncamları;*
- *Dərs yükünün minimum həcmilə bağlı Təhsil Nazirliyinin müvafiq təlimatı;*
- *İcbari dövlət sosial sığortasının qüvvədə olan normativi;*
- *Təhsil müəssisələrində nümunəvi ştatlara dair Nazirlər Kabinetinin qərarı;*
- *Zərərli əmək şəraitində, həmçinin dağ regionlarında işləməyə görə əmək haqqına tətbiq olunan yüksəldici əmsallar və s.*

Pedaqoji işçilərin əmək haqqı fondunun hesablanması üçün başlıca göstəricilər kimi bu kateqoriyadan olan işçilərin sayı, onların ixtisas səviyyəsi, dərs yükü, elmi dərəcəsi, stajı və s. nəzərə alınır. Təhsil müəssisələrində çalışan texniki-xidmət heyətinin əmək haqqı məbləğləri Vahid Tarif Cədvəli əsasında təyin olunsa da, onların sayının planlaşdırılması üçün normativlər mövcuddur. Məsələn, soba ilə qızdırılan ümumtəhsil məktəblərində, litsey və gimnaziyalarda hər 10 soba üçün 0,5 vahid sobayandıran

vəzifəsi nəzərdə tutulur. Bundan əlavə, 30-dan çox sinif-komplekti olan məktəblərdə xadimə vəzifəsi hər iki sinifə 0,5 vahid hesabı ilə artırılır. Yaxud, adıçəkilən təhsil müəssisələrinin 1,5 hektardan çox meyvə bağı və ya yaşıllıq meydançası varsa, həmin təşkilat üçün bağban vəzifəsi müəyyən edilir.






## IV. Təhsil işçilərinin əməyinin ödənilməsinin tarifikasiyası

Büdcə sferasında işləyənlər içərisində ən yüksək xüsusi çəkiyə malik kontingent təhsil sahəsində çalışanlardır. Təhsil sferasının işçi heyətinə məktəbəqədər müəssisələrdə, orta ümumtəhsil, orta ixtisas və ali məktəblərdə, eyni zamanda digər tədris-tərbiyə müəssisələrində işləyən pedoqoji, tədrisə köməkçi və texniki-xidmət işçilər daxildir. İşçi kontingentinin tərkibinin bu cür rəngarəngliyi, eləcə də pedoqoji işçilərin əməyinin yüksək həssaslıq və intensivliyi təhsil sferasında çalışanların əməyinin tarifikasiyasını da xeyli mürəkkəbləşdirir.

Təhsil işçilərinin əməyi tətbiqi formasından asılı olaraq 2 yerə ayrılır:

- *Fərdi əmək müqaviləsi əsasında tam ştatla işləyənlərə;*
- *Əvəzçilik və saathesabı işləyənlərə.*

Birinci qrupa daxil olan ümümtəhsil və peşə məktəblərinin müəllimləri üçün həftəlik dərs yükü 12 saat (illik 480 saat) müəyyən olunur. Ehtiyac yarandığı tədqirdə bu kateqoriyadan olan pedoqoji işçilərin dərs yükü 1,5 stafkadan çox müəyyən oluna bilər. Ali və orta ixtisas məktəblərində çalışan professor-müəllim heyətinin illik dərs yükü 450-500 saat müəyyənləşdirilir və onlara 1,5 stafka dərs yükü müstəsna hallarda verilə bilər.

Əvəzçilik üzrə işi isə təhsil sahəsində çalışanlar həm əsas iş yerlərində, həm də başqa müəssisə və təşkilatlarda 0,5 stafka həcmində iş apara bilərlər. Əvəzçilik üzrə işlərə pedoqoji kadrların xəstələnməsi, məzuniyyətə və ya ezamiyyətə göndərilməsilə bağlı zərurət yarandıqda əməl olunur. Məvacibi saathesabı ödənilən, ümumi həcmi 240 saata qədər olan dərs yükü əvəzçilik deyil, saathesabı iş hesab olunur.

Bütövlükdə təhsil sahəsində əməyin ödənilməsinin tarifikasiyası Əmək Məcəlləsinin və “Təhsil haqqında” Qanunun müddəalarına uyğun olaraq hazırlanmış müxtəlif normativ sənədlər - prezidentin fərman və sərəncamları, Nazirlər Kabinetinin qərar və sərəncamları, Təhsil Nazirliyinin, habelə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ayrı-ayrı təlimatları əsasında həyata keçirilir. Təhsil sahəsində çalışanların əməyinin ödənilməsi sistemi bir neçə elementdən ibarətdir və buraya tarif (vəzifə) maaşlarından başqa müxtəlif əlavələr və üstəliklər də daxildir.

### *1. Təhsil sistemində əmək haqqının tarif sistemi*

Hazırda təhsil işçilərinin əmək haqqı 2 əsas sənədlə - Azərbaycan Resbublikası təhsil nazirinin 8

aprel 1997-ci il tarixli 206 saylı əmri ilə təsdiqlənən "Təhsil sahəsi işçilərinin qulluqçu vəzifələrinin vahid tarif-ixtisas sorğu kitabçası" və "Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi haqqında" Nazirlər Kabinetinin 31 iyul 2004-cü il tarixli 104 saylı qərarı ilə tənzimlənir.

Kim ki, bir dil bilə,
Bir nemətə ol vasildir,
Kim ki, çox bilsə,
O çox nemətə bəs şamildir.

***S.Ə.Şirvani***

Tarif-ixtisas sorğu kitabçası təhsil sahəsində çalışanların məvaciblərinin müəyyənləşdirilməsi üçün ən vacib normativ sənədlərdən biri kimi onların vəzifə borclarının və əməyinin ödənilməsi dərəcələri üzrə ixtisas tələblərinin uyğunluğunu təmin edir. 21 bölmədən ibarət sənəddə təhsil sferasında fəaliyyət göstərən bütün müəssisə və təşkilatların vəzifəli şəxslərindən tutmuş texniki-xidmət heyətinədək bütün işçilər üzrə ixtisas tələbləri müəyyən olunub. Sorğu kitabçası bu sahədə çalışanları təhsil səviyyəsinə görə 4 qrupa bölür:

**1. ümumi orta təhsillilər;**
**2. orta ixtisas təhsillilər;**
**3. ali təhsillilər;**
**4. elmi dərəcəsi və elmi adı olanlar.**

Lakin işçilərin əmək haqqına, daha doğrusu əməyinin ödənilməsi dərəcəsinə onların təhsil səviyyəsilə yanaşı pedaqoji stajı, işlədiyi müəssisənin və tutduğu vəzifənin ranqı, əmək funksiyalarının mürəkkəbliyi də öz təsirini göstərir. Təhsil işçilərinin sada-

lanan prinsip və meyarlar əsasında tarifikasiyasını mövcud sorğu kitabçası əsasında konkret misallarla nəzərdən keçirək.

***Nümunə 1. Ali məktəb rektorunun ödəniş dərəcələrinə ixtisas tələbləri:***

*Müvafiq profilli təhsil müəssisələrində pedaqoji, yaxud rəhbər vəzifələrdə 5 ildən az olmamaqla iş stajı, ali təhsil sahəsində iş təcrübəsi, müvafiq elmi dərəcəsi və elmi adı olan şəxs.*

*17-ci dərəcə - III kateqoriya ali məktəbin rektoru*
*18-ci dərəcə - II kateqoriya ali məktəbin rektoru*
*19-cu dərəcə - I kateqoriya ali məktəbin rektoru*




*Qüvvədə olan qanunvericiliyə əsasən, tələbə kontingenti 2000 nəfərdən az olan ali məktəblər 3-cü kateqoriyaya, 2000-5000 nəfər arasında olanlar 2-ci kateqoriyaya, 5000 nəfərdən çox olduqda isə 1-ci kateqoriyaya aiddir.*

***Nümunə 2. Ali məktəbdə çalışan professor və dosentin ödəniş dərəcələrinə ixtisas tələbləri:***

**a) Professor**

*16-cı dərəcə - elmlər doktoru elmi dərəcəsi olmayan*
*17-ci dərəcə - elmlər doktoru elmi dərəcəsi olan*
*18-ci dərəcə - akademik, Akademiyanın müxbir üzvü*

***b) Dosent***

*14-cü dərəcə - elmi dərəcəsi olmayan*
*15-ci dərəcə - elmlər namizədi elmi dərəcəsi olan*
*16-ci dərəcə - elmlər doktoru elmi dərəcəsi olan*

***Nümunə 3. Orta ixtisas tədris müəssisəsinin direktorunun (rəisinin, müdirinin) ödəniş dərəcələrinə ixtisas tələbləri:***

*Ali ixtisas təhsilli, 5 ildən çox pedaqoji və rəhbər işlərdə stajı olan kadr.*

*14-cü dərəcə - tələbələrin sayı 200 nəfərədək olduqda*
*15-ci dərəcə - tələbələrin sayı 201-500 nəfər arasında olduqda*
*16-cı dərəcə - tələbələrin sayı 500 nəfərdən çox olduqda*

**Nümunə 4. Ümumi tipli ümumtəhsil məktəbinin direktorunun ödəniş dərəcələrinə ixtisas tələbləri:**

*Ali təhsilli, pedaqoji stajı 5 ildən az olmayan:*

*13-cü dərəcə - şagirdlərin sayı 100 nəfərədək olduqda*

*14-cü dərəcə - şagirdlərin sayı 101-300 arasında olduqda*

*15-ci dərəcə - şagirdlərin sayı 301-800 arasında olduqda*

*16-cı dərəcə - şagirdlərin sayı 800-dən çox olduqda*




*Ümumi tipli orta məktəblərin rəhbər işçilərilə xüsusi tipli internat məktəblərinin rəhbər işçilərinin əməyinin tarifləndirilməsi arasında fərq mövcuddur. Belə ki, xüsusi internat məktəbələrin direktorlarının əməyi şagirdlərin sayı 200-dən çox olduqda 16-cı dərəcə ilə tarifləndirildiyi halda, ümumi tipli orta məktəblərin direktorlarının əməyinin həmin dərəcə ilə tarifləndirilməsi üçün şagird kontingentinin sayının 800-dən çox olması tələb olunur.*

**Nümunə 5. Ümumtəhsil məktəb müəlliminin əmək haqqının ödəniş dərəcələrinə ixtisas tələbləri:**

*8-ci dərəcə - orta ixtisas təhsilli, iş stajına tələb qoyulmur.*

*9-cu dərəcə - orta ixtisas təhsilli, 3 ildən 5 ilədək pedaqoji stajı olan və ya orta ixtisas məktəbini fərqlənmə diplomu ilə bitirən .*

*10-cu dərəcə - a) ali təhsillidirsə iş stajına tələb qoyulmur; b) orta ixtisas təhsilli olduqda 5 ildən 10 ilədək iş stajı.*

*11-cı dərəcə - a) ali təhsilli, 3 ildən 8 ilədək iş stajı olan və ya ali məktəbi fərqlənmə diplomu ilə bitirən; b) orta ixtisas təhsilli, 10 ildən 15 ilədək pedaqoji stajı olan.*

*12-cı dərəcə - a) ali təhsilli, 8 ildən 13 ilədək iş stajı olan; b) orta ixtisas təhsilli, 15 ildən çox pedaqoji stajı olan.*

*13-cü dərəcə - a) ali təhsilli, 13 ildən 18 ilədək iş stajı olan; b) orta ixtisas təhsilli, iş təcrübəsi Təhsil Nazirliyi tərəfindən bəyənilib yayılmış, 10 ildən 15 ilədək pedaqoji stajı olan.*

*14-cü dərəcə - ali təhsilli pedaqoji stajı 18 ildən çox olan*
*15-ci dərəcə - a) elmlər doktoru və ya elmlər namizədi elmi dərəcəsi olan və ixtisas üzrə fənni tədris edən; b) "xalq" və "əməkdar" fəxri adı olanlar; v) dərslik, metodiki tövsiyə müəllifi; q) iş təcrübəsi Təhsil Nazirliyi tərəfindən bəyənilib yayılmış olanlar.*




*Ümumtəhsil məktəblərinin texniki-xidmət heyətinin əməyinin ödənilmə dərəcəsinə ixtisas tələbləri 1-7-ci dərəcələrlə müəyyən olunur.*

Təhsil sahəsində çalışanların qulluqçu vəzifələrinin vahid tarif-ixtisas sorğu kitabçası əsasında müəyyən olunan ixtisas tələblərinə və əmək funksiyalarına uyğun olaraq pedaqoji işçilərin tarif (vəzifə) maaşlarının məbləği Nazirlər Kabinetinin yuxarıda adıçəkilən 104 saylı qərarı ilə müəyyən olunub. Həmin qərarın 2-ci bəndinə əsasən pedaqoji heyətin aylıq məvacibləri hazırda aşağıdakı kimidir:

**Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan pedaqoji işçilərin əməyinin ödənilməsinin Vahid Tarif Cədvəli**
*(Nazirlər Kabinetinin 104 saylı qərarına 2 saylı Əlavə)*

| Əməyin ödənilməsi dərəcəsi | Aylıq tarif (vəzifə) maaşı (manatla) |
|---|---|
| 1 | 100 000 |
| 2 | 105 000 |
| 3 | 108 000 |
| 4 | 111 000 |
| 5 | 113 000 |
| 6 | 116 000 |
| 7 | 119 000 |
| 8 | 123 000 |
| 9 | 126 000 |

| | |
|---|---|
| 10 | 128 000 |
| 11 | 132 000 |
| 12 | 147 000 |
| 13 | 163 000 |
| 14 | 180 000 |
| 15 | 200 000 |
| 16 | 222 000 |
| 17 | 247 000 |
| 18 | 275 000 |
| 19 | 310 000 |

Qüvvədə olan qanunvericiliyə görə, büdcədən maliyyələşdirilən ali təhsil müəssisələrində çalışan müəyyən kateqoriya işçilərinin vəzifə və ya stavka üzrə maaşları 26,6 faiz artırılır. Həmin kateqoriyaya professor və ya elmlər doktoru, dosent və ya elmlər namizədi elmi adı, yaxud elmi dərəcəsi olan instiutut rektorları, eyni ada və ya dərəcəyə malik prorektorlar, ixtisasartırma və yenidən hazırlıq üzrə institut direktorları, elmlər doktoru elmi dərəcəsi olan və ya olmayan professor, elmlər namizədi elmi dərəcəsi olan baş müəllim və müəllim-assisent və s. pedoqoji işçilər daxildir.

Vahid Tarif Cədvəli ilə yanaşı təhsil işçilərinin əməyinin ödənilməsini tənzimləyən digər mühüm sənəd kimi "Büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlarda tədris məşğələlərinə cəlb edilən işçilərin əməyinin saathesabı ödənilməsi məbləğləri haqqında" Nazirlər Kabinetinin 20 noyabr 2000-ci il tarixli 205 saylı qərarı da qüvvədədir. Həmin normativ akta görə, təhsil alan kontingentin tərkibindən, tədrisin həyata keçirildiyi müəssisənin kateqoriyasından (ümumtəhsil, peşə, orta ixtisas və ya ali məktəb və s.) asılı olaraq professor, elmlər doktorunun apardığı tədris məşğələsinin hər saatı üçün 3800-5400 manat, elmi dərəcəsi olmayan

şəxslər üçünsə 1900-2500 manat (öz növbəsində dosent, elmlər namizədi 2500-3800 manat) arasında əmək haqqı müəyyən olunub.

### *2. Təhsil işçilərinin məvaciblərinə əlavə və üstəliklər*

Mövcud qanunvericilik təhsil sahəsində çalışan pedaqoji işçilərə tarif (vəzifə) maaşlarından başqa müxtəlif əlavə və üstəlik ödənişlər də müəyyən edir. Bu cür ödənişlər əsas vəzifələrdən savayı əlavə işlərin görülməsinə, elmi dərəcəyə, fəxri adlara və başqa elmi titullara görə hesablanır.

Əlavə ödənişlərin həyata keçirilməsi 3 struktur rəhbərinin - əmək və əhalinin sosial müdafiəsi, təhsil və maliyyə nazirlərinin birgə razılaşdırdıqları "Təhsil müəssisələrində çalışan işçilərə əlavə haqların ödənilməsinə dair Təlimat", Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında əməyin ödənilməsi qaydası haqqında" 26 may 1996-cı il tarixli 60 saylı və "Azərbaycan Respublikasında əməyin ödənilməsi qaydası haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 may 1996-cı il tarixli 60 saylı qərarına dəyişiklik edilməsi haqqında" 8 iyun 2004-cü il tarixli 83 saylı qərarları ilə tənzimlənir.

Qeyd olunan normativ-hüquqi aktlarda əlavə ödənişlərin formaları, onların hər biri üzrə nəzərdə tutulan məbləğlər, eləcə də həmin ödənişlərin müəyyən edilməsi üsulu fərqlidir. Təhsil sahəsində çalışanlar üçün qanunvericiliklə müəyyən olunan bütün əlavə ödənişləri ayrılıqda nəzərdən keçirək.

**A. Sinif rəhbərliyi, dəftər və yazı işlərinin yoxlanması üçün əlavə haqlar**

1) Ümumtəhsil, texniki-peşə və orta ixtisas məktəblərində sinif (qrup) rəhbərliyinə görə əlavə haqlar aşağıdakı kimidir:

- I-IV siniflərdə bir müəllim stavkasının 15 faizi həcmində əlavə haqq ödənilir;

- V-XI siniflərdə bir müəllim stavkasının 20 faizi həcmində əlavə haqq ödənilir;

- texniki-peşə və orta ixtisas məktəblərində bir müəllim stavkasının 15 faizi həcmində əlavə haqq ödənilir.




*Sinifdə (qrupda) şagirdlərin sayı 10 nəfərdən az olduqda sinif (qrup) rəhbərliyi üçün müvafiq məbləğin 50 faizi ödənilir. Bundan əlavə, müəllim yalnız bir sinifdə sinif rəhbərliyi apara bilər. İki sinifə rəhbərlik məktəbdə müəllimlərin sayı kifayət qədər olmadıqda yalnız Təhsil Nazirliyinin icazəsilə mümkündür,.*

2) Dəftər və yazı işlərinin yoxlanmasına görə əlavə haqlar aşağıdakı kimidir:

- bütün tipdən olan ümumtəhsil və internat məktəblərinin I-IV sinif müəllimlərinə dəftər və yazı işlərinin yoxlanılması üçün bir müəllim stavkasının 10 faizi miqdarında əlavə haqq ödənilir;

- təlim qeyri-azərbaycan dilində aparılan I-IV siniflərdə azərbaycan dilini, təlim azərbaycan dilində aparılan I-IV siniflərdə xarici dili digər müəllim tədris edirsə həmin müəllimə şagirdlərin sayı nəzərə alınmaqla yazı işlərinin yoxlanılması üçün ibtidai siniflərdə nəzərdə tutulmuş ödənişə uyğun olaraq dərs dediyi faktiki saatların miqdarına görə əlavə haqq ödənilir;

- ümumtəhsil və internat məktəblərinin V-XI siniflərində, texniki-peşə, orta ixtisas məktəblərində ana dili və ədəbiyyat üzrə yazı işlərinin yoxlanması üçün bir müəllim stavkasının 15 faizi, riyaziyyat, xarici dil və stenoqrafiya üzrə 10 faizi miqdarında əlavə haqq ödənilir;

- orta ixtisas məktəblərində rəsmxətt və texniki mexanika üzrə yazı işlərinin yoxlanılması üçün müəl-

lim stavkasının 10 faizi həcmində əlavə haqq ödənilir.




*Sinifdə (sinif komplektində) şagirdlərin sayı 10 nəfərdən az olduqda yazı işlərinin yoxlanılması üçün müvafiq məbləğin 50 faizi ödənilir.*

**B. Fənn, bölmə və metodiki komissiyalara, şöbələrə və tədris kabinetlərinə, tədris-təcrübə sahələrinə , tədris emalatxanalarına və bədən tərbiyəsi üzrə sinifdən xaric işlərin aparılmasına görə əlavə haqlar**

1) Orta ixtisas məktəblərində müəllimlərə fənn, bölmə və metodiki komissiyalara rəhbərlik üçün bir müəllim stavkasının 15 faizi miqdarında əlavə haqq ödənilir;

2) Məktəb və internat məktəblərində, peşə məktəblərində və peşə litseylərində tədris kabinetinin müdirinə (peşəyönümü, informatika və hesablama texnikası da daxil olmaqla) stavka və ya vəzifə maaşının 10 faizi miqdarında əlavə haqq ödənilir. Hesablama texnikasına xidmət üçün bu iş həvalə olunan şəxsə hər bir işləyən kompütерə görə bir müəllim stavkasının 3 faizi miqdarında əlavə haqq ödənilir;

3) Tədris-təcrübə sahələrinə rəhbərlik üçün əsas məktəblərdə bir müəllim stavkasının 10 faizi, orta məktəblərdə 15 faizi, internat məktəblərində və ciddi tərbiyəyə ehtiyacı olan uşaqlar üçün xüsusi təyinatlı məktəblərdə 20 faizi miqdarında əlavə haqq ödənilir;

4) İbtidai, əsas orta və internat məktəblərində bədən tərbiyəsi üzrə şagirdlərlə sinifdənkənar işlərin aparılması həvalə olunan müəllimə siniflərin sayı 10-19 arasında olduqda bir müəllim stavkasının 20 faizi, 20-29 olduqda 50 faizi, 30 və daha çox olduqda 70 faizi miqdarında əlavə haqq ödənilir. Yetim və va-

lideyn himayəsindən məhrum olmuş uşaqlar üçün internat məktəblərində, məktəbyaşlı uşaqlar üçün uşaq evlərində, həmçinin qarışıq tipli uşaq evlərində şagirdlərlə sinifdənkənar işlərin aparılması həvalə olunan şəxsə siniflərin sayından asılı olmayaraq bir stavkanın 50 faizi miqdarında əlavə haqq ödənilir.

**C. Məktəbə (sinifə), məktəbyanı internata, bölməyə (qrupa), filiala, məktəbin tədris məsləhət məntəqəsinə, məktəbdənkənar müəssisələrin şöbələrinə rəhbərlik üçün əlavə haqlar**

1) İbtidai məktəblərdə sinif komplektlərinin sayı 5-dən aşağı, şagirdlərin sayı isə 100 nəfərədək , natamam musiqi və rəssamlıq məktəblərində şagirdlərin sayı 50 nəfərədək olduqda məktəb direktoru vəzifəsi nəzərdə tutulmur və həmin vəzifə həvalə olunmuş müəllimə aşağıdakı miqdarda əlavə haqlar hesablanır:

- İbtidai məktəblərdə şagirdlərin sayı 100 nəfərədək olduqda bir müəllim stavkasının 20 faizi miqdarında əlavə haqq ödənilir;

- 7-8 illik natamam musiqi, incəsənət və rəssamlıq məktəblərində şagirdlərin sayı 50 nəfərədək olduqda məktəb direktorluğu həvalə olunmuş müəllimə bir stavkanın 15 faizi miqdarında, şagirdlərin sayı 150-dən 200 nəfərədək olduqda tədris hissə müdiri vəzifəsi həvalə olunmuş müəllimə bir stavkanın 20 faizi miqdarında əlavə haqq ödənilir.

2) Məktəbdənkənar müəssisələrin dərnək rəhbərlərinə (eyni profil üzrə 10 dərnəkdən az olmadıqda) bölməyə rəhbərlik üçün bir stavkanın 25 faizi miqdarında əlavə haqq ödənilir;

3) Orta ixtisas məktəblərin müəllimlərinə axşam və qiyabi şöbələrə rəhbərlik üçün aşağıdakı kimi əlavə haqlar hesablanır:

- Şöbədə 100-dən 125-dək tələbə olduqda bir stavkanın 10 faizi, 126-dan 150-dək tələbə olduqda 15 faizi, 151-dən 200-dək tələbə olduqda 20 faizi miqdarında əlavə haqq ödənilir;

- İncəsənət və musiqi işçilərinin hazırlanması üzrə şöbəyə rəhbərlik edən müəllimə tələbələrin sayı 50-dən 100-dək olduqda bir stavkanın 10 faizi, tələbələrin sayı 100-dən çox olduqda 15 faizi miqdarında əlavə haqq ödənilir.

**D. Əmək haqqının stavkaları və vəzifə maaşlarına əlavələrin və üstəliklərin ödənilməsi**

1) Əmək haqqı stavkaları (vəzifə maaşları) aşağıdakı hallarda artırılır:

- "Xalq müəllimi" adı olanlara 25000 manat miqdarında əlavə haqq müəyyən edilir;

- "Əməkdar müəllim" adı olanlara 15000 manat miqdarında əlavə haqq müəyyən edilir;

- Birinci kateqoriyalı ali məktəblərdə çalışan elmlər doktoruna 250000 manat, elmlər namizədinə 150000 manat miqdarında əlavə haqq müəyyən edilir;

- İkinci kateqoriyalı ali məktəblərdə çalışan elmlər doktoruna 220000 manat, elmlər namizədinə 120000 manat miqdarında əlavə haqq müəyyən edilir;

- Üçüncü kateqoriyalı ali məktəblərdə çalışan elmlər doktoruna 190 000 manat, elmlər namizədinə 90 000 manat miqdarında əlavə haqq müəyyən edilir;

2) Ümumi tipli internatlarda, litseylərdə, gimnaziyalarda, müəllif məktəbində, körpələr evində (uşaq baxçası - körpələr evində körpə qruplarda) çalışan pedaqoji işçilərin əmək haqqı stavka və vəzifə maaşlarının 15 faizi miqdarında artırılır;

3) Xüsusi tipli internatlarda (əqli və fiziki inkişafında qüsurlu, ciddi tərbiyəyə, uzunmüddətli müalicəyə ehtiyacı olan internat peşə sağlamlıq məktəbində), məktəbəqədər müəssisələrdə, uşaq evlərində, həddi-buluğa çatmayanlar üçün qəbul-bölgü məntəqələrində, xəstə uşaqlar üçün məktəblərdə, ümumtəhsil məktəbləri nəzdində xüsusi təyinatlı sinif və qruplarda çalışan pedaqoji işçilərin əmək haqqı stavka və vəzifə maaşlarının 20 faizi miqdarında artırılır;




*Pedaqoji işçinin elmi dərəcəsi və eyni zamanda fəxri adı olarsa, hər ikisi üçün qanunvericilikdə nəzərdə tutulmuş məbləğdə əlavə haqq ödənilir.*

Yuxarıda qeyd olunanlardan savayı pedaqoji işçilər üçün qanuvericiliklə bir sıra başqa əlavələr də nəzərdə tutulur. Məsələn, büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlarda tədris məşğələlərinin aparılmasına cəlb olunan və əməyi saathesabı ödənilən xalq müəlliminin məvacibi 20 faiz, əməkdar müəllimin məvacibi isə 10 faiz artırılır.

Bundan əlavə, qanunvericilikdə pedaqoji işlə əlaqəsi olmayan peşə və vəzifləri əvəzləyən təhsil işçiləri üçün də müxtəlif əlavələr nəzərdə tutulur. Məsələn, ümumtəhsil məktəblərində sinif komplektlərinin sayı 5-dən 10-dək olduqda kargüzarlıq və mühasibat işlərinin aparılması həvalə olunan pedaqoji işçiyə stavka və ya vəzifə maaşının 10 faizi miqdarında əlavə haqq verilir.

# Mündəricat

Bələdçi söz . . . . . . . . . . . . . . . . . . . . 3

I. Büdcə və təhsil . . . . . . . . . . . . . . . . . . 5

II. Dövlət büdcəsindən təhsilə
ayrılan xərclər, onların tərkibi və quruluşu . . . . 11

III. Təhsil xərcləri hansı meyarla
müəyyən olunur . . . . . . . . . . . . . . . . . . 45

IV. Təhsil işçilərinin əməyinin
ödənilməsinin tarifikasiyası . . . . . . . . . . . . 51

**Bədii redaktor:** *Cəmil ƏLİBƏYLİ*
**Texniki redaktor:** *Samir ƏLİYEV*
**Rəssam:** *İlqar ABBASOĞLU*
**Korrektor:** *Tural MƏMMƏDOV*
**Operator:** *Sona MƏMMƏDOVA*

**Yığılmağa verilib 30.11.2004**
**Çapa hazırlanıb 10.12.2004**
**Həcmi 4,0 şərti ç.v.**
**Tiraj 1500**

**Kitab "CBS polygraphic production"**
**mətbəəsində çap olunub.**